www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 dekabr 2015-ci il Çərşənbə axşamı № 267 (6295) Qiymətı 40 qəpik

**Xəbər**

## Zaqatalada gənc oğlanın əllərini borca görə biləkdən kəsdilər

yazısı səh.14-də

**Gündəm**

### "MTN işi"nin yeni təfərrüatları



"Akula Akif"in evindəki axtarış zamanı gizli bank kodları üzə çıxıb; ölkəyə talan pulları saxlamaq üçün xüsusi konteynerlər gətirilibmiş

yazısı səh.10-da

### Əsgərimiz şəhid oldu

yazısı səh.2-də

### Prokuror Pənah Hüseynin qohumlarına 25 il 6 ay iş istədi

yazısı səh.3-də

### Lukaşenkonun Azərbaycana dəstək təklifinin pərdəarxası

yazısı səh.8-də

### "Delta Telecom"dakı yanğın işi necə baş verib - ilginc təfərrüat

yazısı səh.10-da

### MSK yenidən formalaşdırılacaq

yazısı səh.11-də

*Razi Nurullayev:*

### "Hazırda Türkiyə və Rusiyanın bir-birinə böyük ehtiyacı var"

yazısı səh.6-da

### Qarabağ məsələsi Ankara-Moskva münasibətlərinin girovuna çevrilir?

yazısı səh.13-də

### Boş qalan dairədə təkrar seçki nə vaxt olacaq?

yazısı səh.11-də

### Azərbaycanda bir sıra adlar qadağan olundu - siyahı

yazısı səh.14-də

### Jirinovski erməniləri satqın adlandırdı

yazısı səh.13-də

### Kəndlilər də kredit borcları içində batırlar

yazısı səh.15-də

### Bakıya yağış, rayonlara qar yağacaq

yazısı səh.14-də

## Ev dustağı edilən sabiq nazir dövlət bağında saxlanılır

# ELDAR MAHMUDOVU APARAN KONVOY YARI YOLDAN QAYIDIB - YENİ ŞOK BİLGİLƏR

Onun yanında yalnız xanımı qalır və onun da bayıra çıxmadığı iddia olunur; "Delta Telekom"un baş direktorunun sensasion müsahibəsi iqtidarın bəzi dairələri ilə razılaşdırılmayıb və bu səbəbdən narazılıq yaradıb; Eldar Mahmudovun və Əli Abbasovun tutulması üçün təkzibolunmaz sübutların efirə verilməsi kimlərin marağında ola bilər?




yazısı səh.5-də

# Türkiyənin Rusiya üzərində mühüm diplomatik qələbəsi

"Su -24" məsələsində Kremlin yanlış taktikası qardaş ölkəni Rusiyadan sürətlə uzaqlaşdırır; Avropa Birliyi-Ankara əməkdaşlığı üçün yeni səhifə açılıb; rusiyalı analitik Putinə "Avropanın xəstə adamı" dedi...

yazısı səh.9-da



*Rəşad Məcid:*

### "Şou düzəltdilər, məni antitürkçü çıxardılar..."

yazısı səh.6-da



*Əflatun Amaşov:*

### "Kimin yanında gözümüz kölgəli deyil"

yazısı səh.7-də



### Vəkil Ramiz Zeynalov məmur-oliqarxların mülkləri barədə şok bilgilər verdi

yazısı səh.4-də

## Azay Quliyev ATƏT PA-nın büro iclasında məruzə edəcək



**Dekabrın 2-də Serbiyanın paytaxtı Belqrad şəhərində ATƏT Parlament Assambleyası Bürosunun iclası keçiriləcək. İclasda Milli Məclisin deputatı Azay Quliyev iştirak edəcək. Milli Məclisdən verilən məlumatda deyilir ki, tədbirdə Avropada miqrant və qaçqın böhranı, bununla bağlı ATƏT və ATƏT Parlament Assambleyası tərəfindən görülməsi mümkün olan tədbirlər barədə fikir mübadiləsi aparılacaq.**

İclasda həmçinin ATƏT PA-nın baş katibi də məruzə edəcək, təşkilatın büdcəsi, növbəti illik sessiyaların gündəliyi və iclasların keçirilməsi tarixləri müzakirə olunacaq.

Tədbirdə deputat Azay Quliyevin gündəlikdəki məsələlər barədə çıxışı da nəzərdə tutulub.

## Əsgərimiz şəhid oldu

**Noyabrın 30-da qoşunların təmas xəttində düşmənlə döyüş toqquşmasında Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu əsgər İsmayılov Elşən Aydın oğlu şəhid olub. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Ermənilərin növbəti təxribatı nəticəsində şəhid olan hərbi qulluqçu müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən ölümündən sonra təltif edilməsi üçün "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalına təqdim olunub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

Müdafiə Nazirliyi bildirir ki, qoşunların təmas xəttində vəziyyətin növbəti dəfə gərginləşdirilməsinə görə məsuliyyət bütünlüklə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür, bu qanlı provokasiya nəticəsiz qalmayacaq və düşmənə vurulacaq zərbə sarsıdıcı olacaq.

## Kəlbəcər məktəbində kütləvi dava: xəsarət alan var

**Kəlbəcər Rayon Təhsil Şöbəsinin tabeçiliyində olan və Gəncədə fəaliyyət göstərən orta məktəbdə kütləvi dava baş verib. "Report" xəbər verir ki, dava zamanı Kəlbəcər rayon 9 saylı orta məktəbin 9-cu sinif şagirdi, 14 yaşlı Fidan Məmmədova kəllə-beyin travması və boyun fəqərələrinin əzilməsi kimi xəsarətlər alıb.**

Yaralı dərhal Gəncə şəhər Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdirilib. Həkimlər məktəblinin vəziyyətini ağır qiymətləndirib.

Faktla bağlı Kəlbəcər Rayon Polis Şöbəsində araşdırma aparılır.




## "Ailəm" paketi "Nar" abunəçilərini sevindirməyə davam edir

Paketə daxil olan nömrələrin öz aralarında pulsuz danışma müddəti növbəti ilin fevral ayının 29-dək uzadıldı

**"Ailəm" paketi daxilində abunəçilərə 4 nömrə arasında pulsuz danışıq təqdim olunur. Paketdən yararlanmaqla, abunəçilər öz ailələri, dostları və yaxınları ilə 29 fevral 2016-cı il tarixədək pulsuz ünsiyyət imkanı əldə edirlər. "Ailəm" paketinə daxil olan 4 nömrənin hər birinə 1 AZN ilkin balans və 100 MB internet trafiki hədiyyə edilir.**

**"Ailəm" paketinin üstünlüklərindən nəinki bütün "Nar" istifadəçiləri, hətta digər operatorların abunəçiləri də faydalana bilərlər. Bunun üçün onlar, sadəcə, öz nömrələrini MND (mobil nömrə daşınması) vasitəsilə "Nar" operatoruna keçirməlidirlər.**

**"Ailəm" paketində ölkədaxili digər istiqamətlərə olan zəngin dəqiqəsi isə "Unikal" tarifinə (ölkədaxili bütün istiqamətlərə 4 qəpik) əsasən hesablanır. 1 mart 2016-cı il tarixindən sonra isə paketinin istifadəçiləri öz aralarında cəmi 1 qəpiyə danışa biləcəklər.**

**Paket barədə daha ətraflı məlumatı bizim internet səhifəmizdən əldə etmək olar: www.nar.az**

# Abid Şərifovun səhhəti haqda həyəcanlı xəbər - "Çindən qayıda bilmir"

**Noyabrın 26-da Pekində Azərbaycan-Çin Ticarət-İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclası keçirilib.**



Komissiyanın iclasına Azərbaycan tərəfdən baş nazirin müavini Abid Şərifov və Çin tərəfdən kommersiya nazirinin müavini Con Şan sədrlik ediblər.

İclasda iki ölkə arasında ticari-iqtisadi sahədə əməkdaşlığa dair məsələlər, o cümlədən nəqliyyat, energetika, kənd təsərrüfatı və digər istiqamətlər üzrə əlaqələrin inkişafına dair mövzular müzakirə olunub.

Musavat.com-a daxil olan məlumata görə, həmin görüşdən sonra Abid Şərifovun səhhətində kəskin problemlər yaranıb. Buna görə də digər nümayəndə heyəti Bakıya qayıtsa da o, nəzərdə tutulan zamanda Azərbaycana dönə bilməyib. Mənbəmiz bildirir ki, Abid Şərifov şəkər və qan təzyiqi xəstəliklərindən əziyyət çəkir. Görüşdən sonra onun vəziyyəti də məhz bu xəstəliklər səbəbindən pisləşib və o, Pekində dərhal xəstəxanaya yatırılıb.

**Məlumatı dəqiqləşdirmək üçün Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əli ilə əlaqə saxladıq. Akif Əli musavat.com-a bildirdi ki, Abid Şərifovun səhhəti ilə bağlı yayılan məlumatdan xəbərsizdir:** "Bu barədə məndə məlumat yoxdur".

Akif Əli məlumatı dəqiqləşdirməyimiz üçün bizə Abid Şərifovun köməkçisinin nömrəsini verdi. Köməkçi isə sualımıza cavab olaraq bildirdi ki, bu barədə məlumat almaq üçün mətbuat xidməti ilə əlaqə saxlamaq lazımdır.

Musavat.com-un əməkdaşı A.Şərifovun mobil nömrəsinə zəng vursa da, telefon bağlı göstərdi.

❑ **Əli RAİS**



## Hacı Məmmədov vəkili ilə görüşüb

**DİN Baş Cinayət Axtarış İdarəsinin keçmiş baş əməliyyat müvəkkili, ağır qətllər və adam oğurluğunda ittiham edilən, hazırda ömürlük həbsdə olan Hacı Məmmədov dövlət başçısına müraciət edib.**

"Report"un məlumatına görə, MTN-in İstintaq təcridxanasında saxlanılan H.Məmmədov son illərdə ilk dəfə ailə üzvləri ilə görüşüb.

Ona ailə üzvlərinin vasitəsilə vəkil tutulub. Vəkil artıq H.Məmmədovla görüşüb. H.Məmmədov yeni vəkilinə bildirib ki, ona keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudov olan dövrdə hədə-qorxu və təzyiqlər edildiyi üçün məhkəmədə sözünü deyə bilməyib.

H.Məmmədov qeyd edib ki, DİN-in Baş Cinayət-Axtarış İdarəsinin sabiq rəisi, general Zakir Nəsirovun bu işlə heç bir əlaqəsi yoxdur. O, Z.Nəsirovun süni olaraq, bu işə cəlb edildiyini deyib.

Qeyd edək ki, DİN-in sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədov və daha 26 nəfər 2005-ci ilin martın 9-dan 10-a keçən gecə MTN-in həyata keçirdiyi "Qara kəmər" əməliyyatı nəticəsində tutulub.

2007-ci il yanvarın 19-da Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə H.Məmmədova və daha 26 nəfərə hökm oxunub. Onlardan H.Məmmədov və Z.Nəsirova ömürlük həbs cəzası verilib.

## Ərdoğan: "Hələ də cavab gözləyirik"

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Putinlə görüş barədə açıqlama verib. Musavat.com xarici KİV-lərə istinadən xəbər verir ki, BMT-nin İqlim Zirvəsi üçün Parisə gedən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Putinlə görüşməsi məsələsinə aydınlıq gətirib.**

Dövlət başçısı "Biz ilk gündən görüş tələbimizi bildirdik. Hazırda onlardan gələcək cavabı gözləyirik" - sözlərini qeyd edib.

Ərdoğan əvvəllər verdiyi açıqlamada Putinlə görüşmək istədiyini bildirmiş, Kreml tərəfi isə yalnız üzr istəniləcəyi halda bunun baş tuta biləcəyini vurğulamışdı.

❑ **Aygün SƏFƏRLİ**

## Reyestr Xidmətinin rəisi işdən çıxarıldı

**Əmlak Məsələləri üzrə Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəisi Məhəmməd İmanov vəzifəsindən azad edilib.**

Lent.az-ın məlumatına görə, xidmət rəisi ilə birlikdə onun müavini də tutduğu postdan azad edilib.

Məlumata görə, rəis vəzifəsindən çıxarılan M.İmanov eyni qurumda daha kiçik vəzifəyə keçirilib. O, xidmətdə sektor müdiri təyin edilib.

Qeyd edək ki, M.İmanovun yerinə hələlik rəsmi təyinat yoxdur.

## Cəlilabadda kütləvi dava: iki nəfər döyülərək bıçaqlandı

**Cəlilabadda iki nəfər bir qrup şəxs tərəfindən döyülərək bıçaqlanıb. "Report" xəbər verir ki, hadisə rayonun Göytəpə qəsəbəsindəki yanacaqdoldurma məntəqələrindən birində baş verib.**

Rayonun Kazımabad kənd sakinləri - 29 yaşlı Namiq Malik oğlu Cabbarov və həmkəndlisi, 25 yaşlı Ramal Zakir oğlu Ağayev ehtiyat yanacaq götürmək üçün avtomobillə yanacaqdoldurma məntəqəsinə daxil olublar. Bu zaman yaxınlıqda olan şəxslər heç nə soruşmadan Ramal Ağayevi yanlarına çağıraraq ona daş və küt alətlərlə zərbə endirməyə başlayıblar.

Döyülərək bıçaqlanan şəxslərin sözlərinə görə, onlara 10 nəfərə yaxın şəxs hücum edib. Ona görə də zərərçəkənlər özlərini müdafiə edə bilməyiblər. Bıçaqlanan gənclər onlara hücum edən şəxsləri tanımadıqlarını və onlarla heç bir mübahisəli məsələlərinin olmadığını bildiriblər.

Yaralılar Cəlilabad Rayon Mərkəzi Xəstəxanasına yerləşdiriliblər və hazırda onların vəziyyəti orta-ağır olaraq qalır.

Hadisəni törədən şəxslərin tapılaraq istintaqa cəlb olunması istiqamətində istintaq araşdırmaları davam etdirilir.

## Putinlə Obama bir araya gəldi

**Rusiya dövlət başçısı Vladimir Putin və ABŞ prezidenti Barak Obama bir araya gəlib. Musavat.com xəbər verir ki, Parisdə BMT-nin İqlim Zirvəsi çərçivəsində bir araya gələn tərəflərin görüşü mətbuata bağlı olub.**

Ağ Evdən verilən açıqlamaya əsasən, liderlər Ukraynada yaşanan böhrandan və Türkiyə tərəfindən vurulan təyyarədən danışıblar.

Məlumata görə, Əsədin getməsinin vacib olduğunu bildirən Obama Rusiyanın Suriyadakı əməliyyatlarda İŞİD-ə fokuslanmalı olduğunu bildirib.

Obama vurulan rus təyyarəsinə görə təəssüf hissi keçirdiyini də vurğulayıb.

❑ **Aygün SƏFƏRLİ**

## Səlim Müslümovun məmurlardan yeni tələbi

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi idarə, müəssisə və şirkət rəhbərlərinə müraciət edib.**

Bu barədə virtualaz.org saytına nazirlikdən məlumat veriblər. Müraciətdə deyilir ki, Əmək Məcəlləsinin 137-ci maddəsinin 2-ci və 3-cü hissələrinə əsasən, istehsalatda baş vermiş qəzanın nəticələrinin aradan qaldırılması, habelə təxirəsalınmaz işlərin görülməsi zərurəti olduğu müstəsna hallarda əmək məzuniyyətində olan işçi ancaq onun razılığı ilə məzuniyyətdən geri çağırıla bilər. Bu zaman işçinin əmək məzuniyyətindən geri çağırılması əmrlə (sərəncamla, qərarla) rəsmiləşdirilməlidir.

Əmək məzuniyyətindən geri çağırılan işçiyə tərəflərin razılığı ilə işə başladığı gündən etibarən əmək haqqı hesablanır və işləndiyi məzuniyyət günlərinin əvəzində ödənişsiz əlavə istirahət günləri (əvəzgün) verilir. Yaxud da işə başladığı gündən etibarən işçiyə əmək haqqı hesablanır, istifadə edilməmiş məzuniyyət günlərinə düşən məzuniyyət pulunun məbləği ondan tutulur. Həmçinin məzuniyyətin istifadə edilməmiş günləri gələcəkdə müəyyən edilmiş vaxtda verilərək Əmək Məcəlləsinin 140-cı maddəsində nəzərdə tutulmuş qaydada yenidən məzuniyyət pulu hesablanıb ödənilir.

Əmək Məcəlləsinin 144-cü maddəsinin 2-ci hissəsinə əsasən, əmək müqaviləsinə xitam verilməsinin səbəbindən və əsasından asılı olmayaraq işçiyə işdən çıxan gündək hər hansı şərt və ya məhdudiyyət qoyulmadan istifadə etmədiyi bütün iş illərinin əsas məzuniyyətlərinə görə pul əvəzi ödənilməlidir.

Əmək Məcəlləsinin 69-cu maddəsinin 6-cı hissəsinin birinci cümləsinə əsasən isə işçi məzuniyyət hüququndan istifadə etməklə ona müvafiq iş ilinə görə məzuniyyətin verilməsi və məzuniyyət müddətinin qurtardığı gündən əmək müqaviləsinin ləğv edilməsi xahişi ilə işəgötürənə ərizə verə bilər.

İşçi məzuniyyətdən geri çağırılarkən ondan istifadə edilməyən məzuniyyət günlərinə görə məzuniyyət pulu tutulduğu halda işçiyə gələcəkdə müəyyən edilmiş vaxtda həmin məzuniyyət günləri verilərək məzuniyyət pulu yenidən hesablanıb ödənilir.

Nazirlik işəgötürənlərdən qanunun tələblərini yerinə yetirmələrini tələb edib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 42 (5751) 16 fevral 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Noyabrın 30-da Sabirabad Rayon Məhkəməsində müxalifət liderlərindən olan - AXP sədri, deputatlığa sabiq namizəd Pənah Hüseynin yeddi qohumuna qarşı məhkəmə keçirilib. Musavat.com xəbər verir ki, hakim Firdovsi Əliyevin sədrliyi ilə keçən proses bir saat davam edib.**
**Prosesdə dövlət ittihamçısı bildirib ki, məhkəmə istintaqı yekunlaşıb.**

# Pənah Hüseynin yeddi qohumu həbs təhdidi altında

## Prokuror AXP liderinin yaxınlarına 25 il 6 ay iş istəyib






Onun sözlərinə görə, 2014-cü ilin avqustunda baş verən xuliqanlıq hərəkətləri şahid ifadələri ilə təsdiqini tapıb.

Dövlət ittihamçısı P.Hüseynin qohumlarına üst-üstə 25 il 6 ay iş istəyib.

İxtiyar Sərxoşov üçün 5 il, Sərxoş Sərxoşova 5 il, Adil Hüseynova 3 il, Vasif Hüseynova 2 il 6 ay, Mansur Hüseynova 2 il 6 ay, Qaşqay Hüseynova 2 il 6 ay, Xalid Sərxoşova 2 il 6 ay müddətinə həbs verilməsini istəyib. Qarşı tərəfdən təqsirləndirilən Rəsul Dəmirova da 2 il 6 ay iş istənilib.

R.Dəmirovun qardaşı Təhməz Dəmirov bildirib ki, dövlət ittihamçısı ilə razıdır.

**Daha sonra vəkillər çıxış ediblər. Vasif Hüseynovun vəkili Pənah Məmmədov bildirib ki, ittihamla razı deyil:** "İbtidai istintaq zamanı araşdırma düzgün aparılmayıb. Şahidlərin fikirlərində zidiyyət var idi. İndi şahid ifadələrini bir-bir xatırlatmaq istəmirəm, ancaq bizim verdiyimiz suallara ziddiyyətli cavabları məhkəmənin qarşısında olub. Şahidlərin ifadələri ilə Vasif Hüseynovla bağlı fakt təsdiq olunmur. Zərərçəkən dəqiq ifadə verə bilməyib ki, onu nə ilə vurublar. Əslində Vasif özü zərərçəkəndir. Burada heç bir xuliqanlıqdan söhbət gedə bilməz. Əməldə xuliqanlıq cinayəti yoxdur. Buna görə bəraət hökmü çıxarılmalıdır. Əməl ibtidai istintaq zamanı düzgün araşdırılmayıb".

**Vəkill Mirismayıl Hadi isə qeyd edib ki, Hüseynovlar ailəsinin yeddi üzvünə istənilən cəzalar ağırdır:** "Onların hər biri barəsində ağır cəzalar istənilib. Müdafiə çıxışı üçün vaxt istəyirəm".

**Digər vəkillər də çıxış üçün vaxt verilməsini istəyiblər. Məhkəmə prosesi dekabrın 7-nə təyin edilib.**

**Məhkəməni hüquq müdafiəçiləri Novella Cəfəroğlu və Səadət Bənəniyarlı da izləyib.**

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# Nardaranda vəziyyət stabilləşir

## Məlum hadisə zamanı ölənlərin yaxınları danışıqlara çağırılıb





**Nardaranda "İmam Hüseyn" meydanı Sabunçu Rayon İcra Hakimiyyəti tərəfindən təmizlənib. Musavat.com-un Nardaranda olan reportyoru xəbər verir ki, polislə silahlı toqquşmada ölənlərin meyitinin əvvəlcə meydana gətiriləcəyi və burada cənazə namazı qılınacağı gözlənilir.**

Ölənlərin sayının 5 olduğu bilinir, amma kənd sakinlərinin dediyinə görə, bu rəqəm dəqiq deyil və ölü sayı çox da ola bilər: "Biz də mətbuatda yazılandan bilirik ki, 5 nəfər ölüb. Amma çox olduğunu da deyənlər var. Daha dəqiqini cənazələri gətirəndə biləcəyik".

Qeyd edək ki, noyabrın 26-dan kənd sakinləri tərəfindən qurulan postlar sökülüb. "İmam Hüseyn" meydanı boşaldılıb. Nardaran camaatı meyitlərin verilməsini, elektrik enerjisinin bərpa edilməsini gözləyir.

Kəndə avtobusun hərəkəti tam bərpa olunub. Elektrik enerjisi verilmədiyindən telefon xətləri də işləmir.

Nardaranda polislə silahlı qarşıdurmada ölənlərin ailə üzvləri polis idarəsinə çağırılıb. Musavat.com-un Nardaranda olan reportyoru xəbər verir ki, ölənlərin ailə üzvləri Sabunçu Rayon Polis İdarəsinə çağırılıb.

Bu danışıqdan sonra meyitlərin ailələrinə veriləcəyi gözlənilir.

Lakin dünən axşam saatlarına olan informasiya bu idi ki, çağırışa hələlik ölənlərdən Babayev Əkbərin ailə üzvləri müsbət cavab verib. Digərləri isə bu təklifə hələ ki cavab verməyib. Kənd ağsaqqalları arasında bu barədə danışıqlar gedir.

**Qeyd edək ki, noyabrın 26-da baş verən silahlı qarşıdurmada 5 dindar öldürülüb.**

❑ **İlkin MURADOV**
**Fotolar müəllifindir**

# Barrikadaların arxasındakı kənd



**Həmid HERİSÇİ**

**"Koroğlu" metro stansiyasından Nardarana, Maştağaya gedən sərnişinlər, fikir verirdim, əvvəlkinə baxanda, bu dəfə çox sakit, həm də fikirli görünürdülər.**

Mindiyim 131 saylı avtobusa əvvəlcə səyyar əl alverçiləri soxuldular. Başladılar öz mallarını tərifləməyə. "Asma dualar, asma dualar...ikisi bir manat! İkisi bir manat" nidasını dəfələrlə təkrarladılar. Axır, şükür, avtobus yerindən tərpəndi. Nardarana çatmamış sərnişinlər arasında pıçapıç, bir də mehribanlıq artdı:

- "Düş, dörd yol deyilən tərəfdə, bir az arxa yollarla get. Birtəhər Allahın köməyi ilə Nardarana çatarsan"...

Deyilənlərə əməl edib Nardaran barrikadalarına yaxınlaşdım. Qaş qaralırdı. Kəndin işığını kəsmişdilər deyə ətraf zülmətə qərq olmuşdu. Barrikadaların arxasında təkərlər yanır, yuxarı qara alov şölələri yüksəlirdi. Hərdən bu qara alov rəngini al rəngə dəyişirdi. Bu vaxt imkan tapıb barrikadadakıları tanımaq mümkün olurdu... Kənddə işıq yoxdu deyə televizor-zad işləmirdi, kənd dünyadan təcrid olunmuş vəziyyətdə idi. Ancaq kəndlilər burda da özlərini itirməmiş, özlərinə təzə canlı televizor icad etmişdilər. Bu televizor 9 yaşlı Bunyadov Əliəkbər idi. O, azyaşlı olsa da moizələr oxuyur, ətrafdakılara öz siyasi, dini savadını sərgiləyirdi. Mənə dedilər ki, atışma zamanı onun atası Rafael həlak olub. Əmisi Fərahim isə az əvvəl bir başqa münaqişədə öldürülüb. Hava getdikcə daha da soyuyur, tonqalların qara tüstüsü daha da tündləşirdi...Bayraqların qara rəngini də bu mənzərəyə əlavə etsək, düşdüyüm ağır vəziyyətin necə olduğunu özünüz də başa düşərsiz.

Göyərçin satanlar öz qəfəsləri üzərinə kapron örtük çəkib bir kənarda durmuşdular. Qorxurdular ki, soyuqdan quşları xəstələnib ölsün. Atılacaq güllələrdən isə elə bil ki, heç qorxmurdular... Bir xeyli söhbətləşdik. Mən dedim ki, dağılsınlar evlərinə - sülhməramlılıq nümayiş etdirdim. Aradabir, cibimdən tum çıxarıb digərlərinin də ovuclarına tökdüm. Tum çırtlada-çırtlada danışırdıq...danışırdıq... Axır, nardaranlılardan ayrıldım. Barrikadalara tərəf son dəfə həyəcan içində boylandım. Bir də gördüm ki, bayaq tum çırtladığımız yerin üstünə bir dəstə ac sərçə qonub, ətrafı dimdikləyirlər... Bu mənzərə ürəyimi dağladı... Gözlərim yaşardı... Qorxurdum ki, sabah bu insanların çoxunu artıq həyatda tapmayım... Qəfil xəbər gəldi ki, bəs ağsaqqallar deyir evə qayıdın....dağılışın...bəs meyitləri sabah gətirib kənd ağsaqqallarına təhvil verəcəklər... Çoxlarının gözü yaşardı... Dəmir nizələrdən, dəyənəklərdən biri bu vaxt yerə düşüb bərk səs saldı... Kəndlilər "qəbirləri harda qazaq?" deyərək pir tərəfə boylandılar...

Azərbaycan tarixinin çox ağır, qanlı səhifələrindən birini yaşayırdıq... Yaxşı ki, sülhməramımız eşidildi... Nardaranlılar evlərinə dağılışdılar. Sabah bütün günü qəbirlər qazmaq lazım idi... Şükür, həm dövlət, həm kəndlilər ağıllarını başlarına yığdılar... Qarşıdurmadan çəkindilər... Yoxsa sabah kənd həqiqətən Kərbəla müsibətinə dönəcəkdi. Şükür sənə, İlahi.

# Mübariz Qurbanlı: "Nardarandakı məscidlər dövlət qeydiyyatından keçməyib"



**"Nardaranda olan məscidlər dövlət qeydiyyatından keçməyib". APA-nın məlumatına görə, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.**

M.Qurbanlı bildirib ki, bu məscidlər də qeydiyyatdan keçməlidir: "Məscidlərin qeydiyyat üçün sənədləri hazırlanmalı, bu məscidlərin ətrafında dini icmalar yaradılmalı, həmin məscidlər rəsmi şəkildə fəaliyyət göstərməlidir. Dövlət qeydiyyatına alındıqdan sonra o məscidlərə Qafqaz Müsəlmanları İdarəsinin təyinatı ilə axundlar göndərilməlidir. Bundan sonra həmin məscidlərdə dini mərasimlər keçirilməsi tam qanunauyğun olmalıdır. Çox təəssüf ki, indiyə qədər Nardaranda həmin məscidlərin qeydiyyatı, dini icmaların yaradılması ilə bağlı çağırışlarımıza, təşəbbüslərimizə adekvat cavablar verilməyib".

**M.Qurbanlı bildirib ki, Nardaranda müqəddəs ziyarətgah var:** "Bu ziyarətgahın təmiri, saxlanılması ilə bağlı dövlətin diqqəti olub, bundan sonra da olacaq. Amma söhbət ondan gedir ki, kimlərsə Nardaranda din adı altında sui-istifadə hallarına yol verməməlidir. Orada gənclərimiz var, gözəl məktəblər tikilib, gənclərin təhsili üçün şərait yaradılıb. Təəssüf ki, gənclərimizi təhsildən yayındıran valideynlər var. Buna da yol vermək olmaz. Çünki gənclərin təhsildən yayındırılması ümumi icbari təhsil haqqında qanuna ziddir. Belə halların qarşısı alınmalıdır".

**"Yeni Müsavat" qəzetinin ötən saylarından birində vəkil Ramiz Zeynalov MTN-in həbs edilən rəhbərliyinə və bu şəbəkəyə bağlı olan ayrı-ayrı məmurlara Bakı şəhərindəki bəzi rayon icra hakimiyyəti başçıları tərəfindən hədiyyə edilən torpaq sahələri barədə məlumat vermişdi. Bunu şəxsi araşdırması adlandıran vəkil əldə etdiyi məlumatları paralel olaraq Prezident Administrasiyasına, müvafiq orqanlara da göndərib.**





# Məmurların topdağıtmaz villaları və torpaq sahələri...

## Ramiz Zeynalov məmur-oliqarxların mülkləri ilə bağlı yeni şok bilgilər verdi; icra başçıları torpaq sahələri ilə necə "xala-xala" oynayıblar?





R.Zeynalov sözügedən yazıdan sonra araşdırmalarını davam etdirdiyini bildirib və redaksiyamıza yeni məlumatlar göndərib. Bəzi iddialarını təsdiqləmək üçün fotoları da yazıya əlavə edən vəkil qəzetimizə göndərdiklərinin bir nüsxəsini Prezident Administrasiyasına da yollayıb.

Vəkilin budəfəki araşdırması Bakı şəhəri, Xəzər rayonu, Buzovna - Maştağa yolunun sol və sağ tərəfində, Zağulba qəsəbəsində Prezident Administrasiyası rəhbərinin iqtisadi məsələlər üzrə müavini, "Azİmport" MMC-nin əsl sahibi Əli Əsədova məxsus torpaq sahələri, üzərindəki mülklərlə bağlıdır. Araşdırma həmçinin MTN-in Bilgəh qəsəbəsində yerləşən istirahət mərkəzinin ümumi torpaq sahəsinin 8,5 hektardan ibarət hissəsinin ƏMDK tərəfindən qanunsuz olaraq Əli Əsədovun adına özəlləşdirilməsi və çıxarış verilməsi barədədir.

### Əli Əsədovun mülkləri - birində cangüdənləri yaşayır, o birisində...

**Vəkilin birinci iddiası ondan ibarətdir ki, Ə.Əsədov Bakı şəhəri, Buzovna qəsəbəsi Cəfər Cabbarlı küçəsi 68 və70 saylı ünvanda Sevinc Dilbazidən aldığı 30 sot və Şeyda adlı şəxsdən aldığı 12 sot torpaq sahələrində yerləşən yüksək gərginlik elektrik xətlərini tutduğu vəzifədən sui-istifadə edərək dövlət hesabına həyətindən çıxarıb və həmin sahədə bir-birindən təcrid olunmuş qaydada 3 mülk inşa etdirib. R.Zeynalov qeyd edib ki, mülklərin darvaza girişlərinin üçü Cəfər Cabbarlı küçəsindən, biri isə 2012-ci ildə Buzovna -Maştağa magistral yolu tərəfdən açılıb:** "Həmin torpaq sahəsi makler vasitəsilə alınaraq hər sotuna qırx min manat verilib. Həmin sahədə inşa edilən mülklərin hər birinin inşasına tamamlama işlərinə külli miqdarda vəsait qoyub. Həmin mülklərin sayca birincisində Əli Əsədovun çoxsaylı cangüdənləri, əslən Astara və Masallı rayon sakinlərindən ibarət təmir-tikinti işlərini aparan şəxslər və həyətlərinin bağbanları daim yaşayırlar. Görəsən, təqribən 20 nəfərdən ibarət bu dəstənin zəhmət haqqını, müsahibələrində israrla iddia etdiyi kimi, əmək haqqı ilə dolanan Əli Əsədov hansı vəsait hesabına ödəyir?"

**R.Zeynalovun növbəti iddiası isə Ə.Əsədovun həmin qəsəbədə Cəfər Cabbarli küçəsi ilə paralel, üzbəüz yerləşən Nəcibə Məlikova küçəsi 25-27-29-31 saylı ünvanda yerləşən 3 darvaza qapısı olan mülkləri və altındakı torpaqları alqı-satqı vasitəsi ilə almasıdır. Vəkil yazıb ki, Ə.Əsədov bu mülkləri alıb və yaşı 80-i keçmiş, heç yerdə işləməyən anası Ədilə Əsədovanın adına rəsmiləşdirsə də, faktiki olaraq Əli Əsədova məxsusdur:** "Onların hər birinin Əli Əsədova məxsus Cəfər Cabbarlı küçəsində yerləşən digər mülklərin küçəsinə də çıxış-giriş qapıları var. Bu torpaq sahələri 48 sotdur, hər sotu 400000 manata - cəmi 1.980000 (bir milyon doqquz yüz iyirmi min manata) Əli Əsədov tərəfindən 3 adamdan - 24-12-12 sot hesabı ilə alınmış və anasının adına rəsmiləşdirmişdir".

### "Hasar qonşusunun suyunu kəsib ki, ofisini ona satmağa məcbur olsun"



**R.Zeynalovun siyahısı bununla da bitmir. Onun iddiasına görə, Ə.Əsədov Zağulba qəsəbəsi, Aruz Mirzəyev küçəsi ilə 8 mart küçələrinin kəsişdiyi yerdə əvvəllər MTN-in Xəzər rayon şöbəsinin əməkdaşı olan Ürfan adlı şəxsə məxsus 12 sot torpaq sahəsində yerləşən təxmini ölçüləri 15X12metr olan, 2 mərtəbəli mülkü 2009-cu ildə 750000 ( yeddi yüz əlli min ) manata alaraq bacısı Şərabanunun adına rəsmiləşdirib:** "Bundan başqa, evin bir hissəsinin yerləşdiyi 8 mart küçəsi ilə Buzovna-Maştağa qəsəbələrini birləşdirən körpüyə aparan yolu qanunsuz olaraq bağlatdırıb. Evinin o biri yanından keçən, dənizə gedən əsas yolun evinin digər tərəfindən keçən hissəsinə maşınların surətini məhdudlaşdıran qurğular qoyub 2015-ilin may ayından başlayaraq həyətinin arxasında olan qəsəbə sakinlərinə məxsus 4 qaraj və həyətinin o hissəsində olan Ermənistan qaçqını tərəfindən zəbt edilmiş təxminən 10 sot torpaq sahəsi və həmin sahədə qanunsuz inşa edilmiş 1 mərtəbəli evini 300.000 min manata alaraq sökmüşdür. Daha sonra o evə bitişik Buzovnada yerləşən qocalar evinə məxsus su anbarı və nasos mərkəzini, digər şəxsin istifadəsində olan torpaq sahələrində yerləşən su quyularını da qulluq mövqeyindən sui-istifadə edərək məhv edib. Bundan başqa, qanunla hasarın hündürlüyünün 2,4 olması müəyyən edilsə də, 4 (dörd) metr hündürlüyü olan hasarlar inşa edərək zəbt edilmiş torpaq sahələrini həyətinə qatmış və iki küçə arasındakı gediş-gəliş yolunu da həyətinə qataraq, bir küçədən o biri küçəyə aparan yolu bağlayıb. Həyətindən keçən su xəttini də özbaşına kəsərək əhalini və hasar qonşusunu artıq 3 ildir ki, su təchizatından qəsdən məhrum etmiş və onun 4 sota yaxın torpaq sahəsi olan ofisini ona satmağa məcbur etməkdədir".

**R.Zeynalovun daha bir iddiası isə Buzovna- Maştağa yolunun sağında yerləşən bir torpaq sahəsi ilə bağlıdır. Vəkilin yazdığına görə, Ə.Əsədov orada Dənizkənarı bulvarın direktoru vəzifəsinə təyin etdirdiyi yaxın qohumu Şahmarov Əfqanin adına 50 sot torpaq sahəsini hər sotu 40 min manatdan olmaqla 2.000000 milyon manata Milli Məclisin deputatı Ziyad Səmədzadənin qardaşından və digər şəxsdən alıb. 2011-2012-ci ildə Buzovnada gedən abadlıq işləri zamanı büdcədən mənimsədiyi vəsaitlər hesabına həmin torpaq sahəsində hər bir oliqarxların həsəd apara biləcəyi 5 mərtəbəli ümumi sahəsi təxminən 3 min kv.metr olan mülk inşa etdirib:** "Özünə məxsus olsa da, həmin mülkü qohumu Əfqan Şahmarovun adına rəsmiləşdirib. Əli Əsədov sabiq nazir Eldar Mahmudov, ƏMDK-nın sədri K.Həsənov, onun müavini R. Cəlilov və digərləri ilə cinayət əlaqəsinə girərək MTN-in Bilgəh qəsəbəsində yerləşən istirahət mərkəzinin torpaq sahəsinin 8,5 hektardan ibarət hissəsinə sahibi olduğu "Azİmport" MMC tərəfindən hasar çəkdirərək ayırıb. Həmin torpaq sahəsi ƏMDK-nın sədr müavini Rafiq Cəlilov tərəfindən Əli Əsədovun adına özəlləşdirilərək çıxarış verilib".

**R.Zeynalovun növbəti iddiaları isə digər məmurlarla bağlıdır. Vəkil iddia edir ki, Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Gülağa İslamov 2015-ci ilin avqust ayında hazırda həbsdə olan Rabitə və Yüksək Texnologiya Nazirliyinin kabinet rəhbəri Vidadi Zeynalovun qardaşı, MTN Suraxanı rayon şöbəsinin rəisi Vahid Zeynalova (vəzifədən azad edilmişdir) Türkan qəsəbəsində keçmiş Dövlət Aqrar Sənaye Komitəsinə məxsus " Məhsul" bağçılıq sahəsinin qarşısından 10 hektar torpaq sahəsini qanunsuz verib:** "Sonuncu həmin torpaq sahəsini hasara aldırıb və yardımçı otaqlar inşa etdirib. Bundan başqa, Xəzərin icra başçısının qanunsuz sərəncamı ilə Mərdəkanda yerləşən, ləğv edilmiş Bağ Təsərrüfatı İdarəsinin balansında olan 1 hektar torpaq sahəsini başqa bir yüksək rütbəli dövlət məmurunun adına rəsmiləşdirmişdir. Sonuncu fakt isə Quba Rayon İcra Hakimiyyətinin başçısı Rauf Həbibovla bağlıdır. O, Qubanın Qəçrəş qəsəbəsinin torpaq sahəsinin 1 hektarını dost olduğu Gülağa İslamovun adına rəsmiləşdirərək, ona bağışlayıb. Əvəzində isə Gülağa İslamov da Rauf Həbibovun adına Şüvəlan qəsəbəsindən 1 hektar torpaq sahəsini qanunsuz sərəncamla rəsmiləşdirərək ona bağışlayıb".

### Vəkilin evinə gəlib, havaya atəş açan şəxslər kimin adamıdır?

**R.Zeynalov məmurların mülkləri ilə bağlı iddiasını yekunlaşdırandan sonra bu araşdırma çərçivəsində 28.11.2015 tarixində başına gələn olay barədə də məlumat verdi. Dedi ki, sözügedən tarixdə, təxminən 13:30 radələrində ona özünü Hacı Rövşən adlandıran şəxs zəng vurub:** "Bu şəxs məni öldürməklə hədələdi, biədəb söyüşlərlə təhqir etdi. MTN-in sabiq şefi və icra hakimiyyəti başçısı İslamov barədə "Yeni Müsavat" qəzetində çap etdirdiyim və prezident İlham Əliyevə məruzə edilməsi üçün Prezident Administrasiyanın rəhbəri Ramiz Mehdiyevin elektron ünvanına göndərdiyim məlumatları, onun Buzovna qəsəbəsində yerləşən "Dekor" mebel mağazasını kameraya çəkməyimi, niyə işçisinə tabe olmayaraq çəkilişi dayandırmadığımı, vəsiqəmi təqdim etmədiyimi və guya kameranı onun başına vuracağımla hədələdiyimi dedi. Bundan başqa, bu şəxs tələb etdi ki, mən harada olduğumu deyim. Gəlib məni öldürəcəyi ilə hədələdikdən sonra telefonunu qapadı. Hədənin real olduğunu başa düşərək DİN 102 xidmətinə bu barədə məlumat verdikdən sonra Zağulba qəsəbəsindəki evimə qayıtdıqda 2-ci polis bölməsindən zəng gəldi. Bildirdim ki, araşdırmanı onların aparmasının əleyhinəyəm. Bundan sonra 102 xidmətinə yenidən zəng vurdum. Evin 2-ci mərtəbəsinə daxil olanda aşağıdan ünvanıma nalayiq söyüşlər eşidərək balkona çıxdım. Yaşı təxminən 25-30 arasında olan şəxslərə bildirdim ki, məni söymələri ilə bağlı polisə zəng vuracam. Bu zaman onlardan qısa boylusu əlindəki tapançadan havaya atəş acaraq məndən bayıra çıxmağımı tələb etdi. Mən evə girdikdən sonra onların küçəmizdən uzaqlaşdıqlarını görüb yenidən müvafiq orqanlara müraciət etdim. Bir daha xahiş edirəm ki, bu hadisə ilə bağlı təxirəsalınmaz tədbirlər görəsiniz".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 267 (6295) 1 dekabr 2015

# Ev dustağı edilən sabiq nazir dövlət bağında saxlanılır

**Oktyabrın 17-də işdən çıxarılan milli təhlükəsizlik naziri Eldar Mahmudovun niyə həbs edilməməsi ətrafında müəmmalı vəziyyət davam edir. "Yeni Müsavat" hələ bir ay əvvəl yazmışdı ki, E. Mahmudov barəsində ev dustaqlığı barədə qətimkan tədbiri seçilib və sabiq nazir ciddi nəzarət altındadır.**



# Eldar Mahmudovu aparan konvoy yarı yoldan qayıdıb - yeni şok bilgilər

## Onun yanında yalnız xanımı qalır və onun da bayıra çıxmadığı iddia olunur; "Delta Telekom"un baş direktorunun sensasion müsahibəsi iqtidarın bəzi dairələri ilə razılaşdırılmayıb və bu səbəbdən narazılıq yaradıb; Eldar Mahmudovun və Əli Abbasovun tutulması üçün təkzibolunmaz sübutların efirə verilməsi kimlərin marağında ola bilər?

Onu da qeyd etmişdik ki, ev dustaqlığı həbsə alternativ qətimkan tədbiri olduğundan şəxsin həbsə alınması barədə məhkəmənin qərarı alındıqdan sonra onun əvəzinə seçilə bilər. Yəni bu o deməkdir ki, E.Mahmudov barədə əvvəl həbs sanksiyası verilib, amma bu, ev dustaqlığı ilə əvəz olunub. Məlumatda deyilirdi ki, sabiq nazir işdən çıxarılan gün onun barəsində həbs sanksiyası imzalanıb, bundan sonra isə onun ev dustaqlığı barədə məhkəmə qərarı verilib. Sabiq nazirə əmri ilə bərabər, həm də həmin sənədlər təqdim edilib. Böyük ehtimalla nazir barədə sanksiyanı baş prokurorun müavini Rüstəm Usubov imzalayıb, Səbayel Rayon Məhkəməsi isə ev dustaqlığı barədə qərar verib.

Baş Prokurorluğun son məlumatına görə, MTN-dən qovulan 19 sabiq vəzifəli şəxs Cinayət Məcəlləsinin müvafiq maddələri ilə həbs olunub, 1 nəfər ev dustağı edilib, istintaqdan yayınan 1 şəxs barəsində axtarış elan edilib. Prokurorluq kimin barəsində ev dustaqlığı qərarı verildiyini açıqlamır.

Baş Prokurorluğun açıqladığı siyahıdan sonra mediada ev dustağı edilən şəxsin MTN-in Əməliyyat-Texniki Baş İdarəsinin sabiq rəisi, general-mayor Natəvan Mirvətova olduğu iddia edildi. Amma 19 nəfərlik həbs edilənlər siyahısında N.Mürvətovanın adı var. Bu halda isə ev dustağı edilən şəxsin, "Yeni Müsavat"ın yazdığı kimi, Eldar Mahmudovun olması təsdiqlənir.

***

Sabiq nazirin Xüsusi Dövlət Mühafizə İdarəsi əməkdaşlarının ciddi nəzarət altında olduğu dəqiqdir. E.Mahmudov oktyabrın sonunda Badamdardakı villasından çıxarılıb və Bakı ətrafındakı dövlət bağlarından birində saxlanılır. Onun yanında yalnız xanımı qalır və onun da bayıra çıxmadığı iddia olunur. Eldar Mahmudovun ailə üzvlərinin, həmçinin qayınatasının keçmiş nazir işdən çıxarılmamışdan bir neçə gün əvvəl Azərbaycandan getdiyi iddiaları var, amma bu məlumat bu günədək də nə təsdiq, nə də təkzib olunub.

Yeri gəlmişkən, bu ilin sentyabr ayının 24-də E.Mahmudovun qızının toyu olub. E.Mahmudovun kiçik qızı Nərgiz Mahmudova Rasim Əliyevlə ailə həyatı qurub. Toy mərasimi "Buta Palace"da baş tutub. O zaman mətbuat yazırdı ki, N.Mahmudova mərhum prezident Heydər Əliyevin qardaşı nəvəsi ilə ailə həyatı qurub. Yaxın keçmişə ekskurs edəndə, belə aydın olur ki, 2012-ci ildə isə "Buta Palace" sarayında Eldar Mahmudovun oğlu Anar Mahmudov evlənib. O da Beynəlxalq Bankın o vaxtkı rəhbəri Cahangir Hacıyevin qızı ilə ailə qurub.

Cahangir Hacıyev və E.Mahmudov barəsində həbs qərarının verilməməsinin səbəbləri sırasında yuxarıda qeyd etdiyimiz qohumluq əlaqələrinin nə dərəcədə rolu olub-olmadığını demək çətindir. Çünki bu adamlar həbsxanaya salınmasalar da, faktiki istintaq altındadırlar. C.Hacıyevə də ölkədən çıxmaq yasağı var və o tez-tez kredit işi ilə bağlı istintaqa çağırılır.

***

E.Mahmudovun dindirilib-dindirilməməsi barədə də maraqlı xəbərlər var. Məsələn, hələ bir müddət əvvəl redaksiyamıza belə bir xəbər daxil olmuşdu ki, sabiq naziri ifadə almaq üçün nəzarətdə saxlandığı yerdən çıxarıblar. Amma xüsusi konvoy bağdan çıxdıqdan bir neçə dəqiqə sonra geri qayıtmalı olub. Xəbərə görə, buna səbəb sabiq generalın "özünü çox pis hiss etməsi" olub. Mənbə bildirib ki, onun bu vəziyyətdə dindirilməsi məqsədəuyğun olmayıb. Amma sabiq nazirin "istintaqla əməkdaşlıq etdiyi" deyilir.

Daha bir sensasion xəbər E.Mahmudovun həbs edilən işçilərinin "generala sadiq qalması" barədədir. Yəni cinayət məsuliyyətinə cəlb edilənlər sabiq naziri suçlamırlar. İddia edilir ki, həbs edilənlər vəkillərinə də tapşırıb ki, E.Mahmudov barəsində, ümumiyyətlə, bir kəlmə belə danışmasınlar. Qeyd edək ki, doğrudan da "Beynəlxalq Bank" işi ilə bağlı tutulanların vəkilləri tez-tez C.Hacıyevin hələ də məsuliyyətdən yayındığını deməkdən çəkinmirlər. Ötən həftə isə Yüksək Texnologiyalar və Rabitə Nazirliyinin həbsdəki sabiq aparat rəhbəri Vidadi Zeynalov barəsindəki mənimsəmə ittihamlarına vəkili vasitəsilə münasibət bildirərək "nazir Əli Abbasov idi" mesajı göndərib. V. Zeynalovun daha bir mesajı da maraqlıdır. O, israrla adının E.Mahmudovla hallanmasını istəmədiyini deyib.

Maraqlıdır ki, "MTN işi"nin vəkilləri də E.Mahmudovu "yaddan çıxarıb". Yəni ayrı-ayrı epizodlarda E.Mahmudovun adı keçsə də, həbs edilənlərin və ya onların yaxın qohumlarının sabiq nazir haqda hələ ki suçlamaları yoxdur.

Daha bir maraqlı məqam isə "Delta Telekom"un baş direktoru Ramazan Vəliyevin ötən həftəsonu ANS-ə müsahibəsi ilə bağlıdır. R.Vəliyev noyabrın 16-da baş vermiş məlum yanğından sonra Azərbaycanın saatlarla internetsiz qalmasından, müəssisədə MTN-in xüsusi qurğu yerləşdirməsindən və bəzi maliyyə mənimsəmələrindən danışarkən Eldar Mahmudovu suçlayıb.

**Müsahibədə Eldar Mahmudovun prezidentin adından danışması barədə maraqlı məqam var:** "Şəxsən özü *(E.Mahmudov-red.)* mənə bildirdi ki, avadanlıq quraşdırılmalıdır. Biz bilirik ki, Avropa oyunlarında müxtəlif terror hadisələri gözlənilir və mən cənab prezidentə məruzə etmişəm, avadanlığın quraşdırılması üçün şərait yaratmağa borclusuz və hətta oradakı 1 milyon 700 min ABŞ dolları dəyərində olan əlavə avadanlıqlar operatorlar tərəfindən alınacaq. Bunların hamısı sizin tərəfinizdən təmin olunmalıdır və bu, cənab prezidentin göstərişidir. Bunu da mən yenə bizə lisenziya verən təşkilata məruzə etdim ki, vəziyyət bu yerdədir. Yəni artıq cənab prezidentin adı ilə bizə göstəriş gəlir ki, bu qoyulmalıdır".

Ümumiyyətlə, yanğın baş verən otağın efirdə göstərilməsi, idarə rəhbərinin bəzi məsələləri bütün təfərrüatları ilə anlatması və əsas ittihamları da E.Mahmudova yönəltməsi bəzi suallar yaradıb. Yəni hakimiyyət MTN-in "Delta Telekom"da qurduğu xüsusi sistemin və sonradan güman ki, uzaqdan komanda ilə yandırılması faktının ortaya çıxmasını arzulasaydı, indiyədək bunu öz televiziyaları vasitəsilə edə bilərdi. İkinci bir maraqlı məqam budur ki, "Delta-Telekom" Xüsusi Dövlət Mühafizə Xidmətinin rəis müavini, E.Mahmudovla münasibətləri hər zaman gərgin olan Bəylər Əyyubovun nəzarətindədir. Bəylər Əyyubov MTN-dəki gizli dinləmələrlə bağlı işə nəzarət edir. Ona görə də ehtimal etmək olar ki, bu müsahibə məhz baş qorumanla razılaşdırılıb. Amma maraqlıdır ki, müsahibə yayıldıqdan sonra ANS onu saytından çıxarıb, bəzi saytlarda isə xəbərin "kökü silinib". Güman ki, bu müsahibə iqtidarın bəzi dairələri ilə razılaşdırılmayıb və bu səbəbdən narazılıq yaradıb. Çünki bu, faktiki, Eldar Mahmudovun və Əli Abbasovun tutulması üçün təkzibolunmaz sübutlardır. İqtidar isə bu həbslərə görə nədənsə tələsmir...

❑ **"Yeni Müsavat"**

# Paxıllıq ediləsi bir şey varmı?



**Hüseynbala SƏLİMOV**

**Bəlkə də artıq bu ilə də yekun vurmağın vaxtıdır. Amma qarşımızda hələ bütöv bir ay var. Bu bir ay ərzində nələr olacaq və nələr baş verəcək, bunu bir Allah bilir və bu gün biz bu xüsusda söz deməyə acizik...**

İndilik isə bəzi məqamlarla bağlı münasibətimizi bölüşmək istərdik. Bəli, Qərbdə artıq Milad bayramı yaxınlaşır. Mən bu haqda xatırlatma etməzdim və bunun üstündən sakitcə sovuşub keçərdim. Əgər bircə detal olmasaydı... Amerikalılar deyir ki, dövlət bir il ərzində insanlardan aldıqlarının hamısını məhz bu Milad günlərində qaytarır. O gün Amerikadan bir süjetə baxırdım və həmin o süjet mənə çox təsir etdi...

Təsəvvür edin, Amerikada dükanlar 90 faiz endirimlə işləyir. Amma bizdə nə olacaq?..

Bayram ərəfəsində qiymətlər təbii ki, tamam kəllə-çarxa vuracaq. Özü də bu, təkcə yeni il ərəfəsində olmur...

Bəli, Novruz vaxtı da belə olur, digər bayramlar ərəfəsində də. Bunu necə izah edək? Söz demək, izah tapmaq çətindir...

İzahı yoxdursa, vaxt sərf etməyin də mənası yox. Ona görə ki, belə cəhdlərin heç biri lazımi anlaşıqla qarşılanmayacaq, çünki özümüzün mental dəyərlərimizə inamımız o qədər böyükdür ki, əks arqument və ya da alternativ fikir eşitmək istəmirik - bir ağızdan deyirik ki, bizdə hər şey yaxşıdır...

O qədər israrlıyıq ki, hətta cəmi dünyanın bizə paxıllıq etdiyini düşünürük. Amma belədirmi? Vallah, bizdə paxıllıq ediləsi heç bir şey yoxdur. Sadəcə, bizdən qorxurlar. Bəli, qorxurlar ki, öz dəyərlərimizlə və dünyagörüşümüzlə onların da həyatını ağırlaşdıra bilərik...

Bəli, deyirik ki, Qərb dəyərləri bizə uyğun deyil. Guya ki, Qərb bizim inkişaf etməyimizi istəmir. Amma baxın. Cənubi Koreya, Yaponiya, cənub-şərq ölkələri... Onların hamısına Qərbin təsiri olub. Amma görün bu ölkələr inkişaf deyilən prosesin hansı mərhələsindədir!..

Biz isə yerimizdə sayırıq. Özümüzü hamıdan ağıllı, hamıdan mərhəmətli və cəmi dünyadan tədbirli hesab edirik. Amma haqlıyıqmı?..

Güman etmirəm. Əslində o şeyləri ki, biz öz dəyərlərimiz adı ilə gözə soxmaq istəyirik, onların hamısı Qərb dəyərləridir...

Multikulturalizm haqda bəlkə də məndən çox düşünən yoxdur. Onu hələ 1995-ci ildə o vaxtki partiyamızın proqram layihəsinə də yazmışdım. Amma gəl, multikulturalizm liberal dəyərdir, ona liberal ölkələrdə təsadüf olunur. Biz isə istəyirik ki, onu özümüzün əyalət avtoritarizmimizə yamaq edək. Fəqət, bu, mümkündürmü? Təbii ki, yox. Ona görə ki, biz liberal ölkə və liberal cəmiyyət deyilik...

Özünüz baxın, neçə gündür ki, həyəcanlı anlar yaşayırıq. Diqqətimiz Bakının ürəyində yerləşən kəndə yönəlib. Bu fonda bizi multikultural ölkə hesab etmək olarmı? Təbii ki, yox...

Bir neçə dəfə yazmışıq ki, insanlara normal dünyəvi siyasətlə məşğul olmaq imkanı verməyəndə, onlara əsl demokratik vərdişlər aşılamayanda, insanların daim doğru-dürüst informasiya almaq imkanı olmayanda, azad media, müstəqil məhkəmələr olmayanda siyasi fəzanı gec-tez müxtəlif radikallar tutur. Onlar isə multikulturalizm sözünü heç eşitmək də istəmirlər...

Özü də bu, təkcə bu gün belə deyil. Bir neçə ilin, bəlkə də 20 il bundan əvvəlin söhbətidir. Bir yığıncaqda dini partiyaların da təmsilçiləri iştirak edir və müzakirə olunan məsələlərə münasibətlərini açıqlayırdılar. Onlar hələ 20 il bundan əvvəl deyirdilər ki, dünyəvi qanunları tanımaq istəmirlər...

Elə bu səbəbdən də liberal olmayan siyasi sistemə liberal dəyərləri yamaq etmək istəyəndə bir şey alınmır. Həm də multikulturalizm çətin bir şeydir və o, müxtəlif mədəniyyətlərin, dini inancların və icmaların birgə yaşayışını nəzərdə tutur...

Bütün mədəni və dini icmalar əgər başqaları və dövlət üçün təhlükə törətmirlərsə mövcud olmaq hüququna malikdirlər. ABŞ-da nə qədər ekzotik dini və mədəni icma var! Onların hamısı öz qaydaları ilə yaşayır. Bir şərtlə ki, digərləri və ən əsası da dövlət üçün təhlükə törətməsinlər...

Amma bizdə nə baş verir? Təcrübəli sürücülər maşını hərəkətə gətirmək üçün əvvəlcə onu azacıq geri sürür, sonra isə irəli hərəkət etdirirlər. İndi biz də irəli getmək əvəzinə geriləyirik. İnanmaq istəyirsən ki, bu da bir texnikadır və irəli getmək üçün manevrdir...

İstərdik belə olsun. İndiliksə çox da süni ritorikaya varmaq lazım deyil. Bizim bu dünyada nümunə olmağımıza hələ çox var. Əsas isə odur ki, dünya heç də bizə paxıllıq etmir, çünki paxıllıq ediləsi şey yoxdur...

**"525-ci qəzet"in baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcidin Türkiyənin Rusiya hərbi təyyarəsini vurması ilə bağlı "Türkiyə Rusiyaya üzrxahlıq eləməlidir! Yanlış olub, deməlidir" fikri ətrafında qalmaqal mediada uzun müddət müzakirə olundu. Məşhur telejurnalist Sevil Nuriyeva ilə millət vəkili Aqil Abbas və Rəşad Məcid arasında gedən söz davasına politoloq Zərdüşt Əlizadə də qoşuldu.Tərəflər arasındakı fikir ayrılığı zaman-zaman təhqir həddini də keçdi.**

# "Peşman deyiləm"

## Rəşad Məcid: "Bundan şou düzəltdilər, məni antitürkçü çıxardılar..."

**R.Məcid "Yeni Müsavat"a müsahibəsində bu qalmaqalın yaranması və onun ətrafında gedən proseslərlə bağlı danışdı. Müsahibimiz öncə məlum fikirlərini necə və hansı zərurətdən yaydığını açıqladı.**

- Mən səhər-səhər oyananda öz fikirlərimi sosial şəbəkədəki statusumda əks etdirdim. Həmin axşam Rusiya və Türkiyə televiziyalarına baxdım, prosesləri izlədim. Səhər oyananda bunu yazmışam. Orda da Azərbaycan dilində bildirmişəm ki, Türkiyə Rusiyadan üzrxahlıq etməlidir, "yanlış olub" deməlidir. Ola bilsin ki, "yanlış olub"u "keçmiş olsun" kimi deyə bilərdim. Amma fikirlərimi orda aydın şəkildə demişəm ki, Rusiya-Türkiyə əməkdaşlığının bizim bölgənin problemlərinin həllində rol oynayacağını düşünürdüm. Yaxınlaşma gedirdi və son bir neçə ildə belə yaxınlaşma olmamışdı. İndi də o fikirdəyəm. Mənim proseslərə soyuqqanlı baxışımdan yaranan qənaətdir. Düzdür, bir günün, üç günün qənaəti deyil. İllərin qənaətidir ki, bizim Qarabağ probleminin həlli məhz Rusiya, Türkiyənin razılaşmasından, əməkdaşlığından, müttəfiqliyindən keçir. Bu hisslərimi də o şəkildə bildirmişəm. Hansısa saytlar o yazını götürdülər, üzrxahlığı üzr istəmək kimi təqdim etdilər, bundan şou düzəltdilər, məni antitürkçü çıxardılar. Bu, onların öz işidir, öz vicdanlarının səsidir. Mən çoxdandır qaragüruhun hücumuna öyrəşmişəm, bir neçə dəfə belə hallar olduğu üçün ona soyuqqanlı yanaşıram. Bir adam öz düşündüyünün, fikirlərinin həqiqət olduğunu bilib, ona inanırsa, hər hansı qaragüruh hücumu onu narahat etmir. Məni burda narahat edən ağıllı saydığım, siyasəti bilən, bölgədə sakitliyi, stabilliyi arzulayan adamların da qaragüruhun hücumundan qorxaraq səslərini çıxarmamaları idi. Buna təəssüfləndim ki, niyə normal, soyuq düşüncəli adamlar bu proseslərin Azərbaycana da, Türkiyəyə də, Rusiyaya da ziyan verəcəyini görmürlər. Bu mənada bəzi adamların münasibətindən təsirləndim.

***- Sizi dəstəkləyənlər çox oldu?***

- Bəli. Hətta belə oldu ki, təklikdə "Rəşad müəllim, siz düz deyirsiz, sizin kimi düşünürük" dedikləri halda, bu fikirləri ictimaiyyətə açıqlamaqdan çəkindilər. Mənim indi 20-25 yaşım yoxdur ki, ümumi kütlənin dediyini deyim. Mənim nə fikrim varsa, onu deyirəm. Özümü haqlı sayıramsa, yüz dənə keçmiş irançılar, eynullafətullayevlər, zərdüşt əlizadələr hədyan yağdırsalar da, mən öz fikrimdən dönən deyiləm. Əslinə qalanda, artıq Azərbaycanda hamı bir-birini tanıyır. Kimin nəyə görə sevindiyini də aydın bilir. Əgər bir ilin irançısı bu hadisəyə sevinirsə, deməli, o, Türkiyə-Rusiya münasibətinin pisləşməsini arzulayır. Və yaxud min ilin rusiyapərəsti Eynulla Fətullayev bu hadisəyə sevinirsə və birdən-birə pantürkistə çevrilirsə, bunun da arxasında çirkin hadisələr dayanır. Ona görə də mən bu hadisələrlə bağlı bu ovqatdayam.



### "Bütün varlığımla, qanımla özümü türk hesab edirəm"

***- Yanılmıramsa, bu açıqlamadan sonra sizə hücum edənləri "üzr istəmək" və "üzrxahlıq" ifadələri arasındakı fərqi bilməməkdə ittiham etdiz. Hərçənd ki, bunu söz oyunu adlandıranlar da oldu. Bütün hallarda siz Türkiyəni bu məsələdə haqsız hesab etmişdiz...***

- Azərbaycanda Azərbaycan dilini gözəl bilən Ramiz Rövşən və Türkiyədəki professor, alim dostum İrfan Çiftçi ilə bu məsələləri müzakirə etdik. Onlardan da soruşdum ki, "üzrxahlıq" və "üzr istəmək" sözləri arasında fərq varmı? Dedilər ki, bəli, fərq var. İndi Ərdoğanın "biz təəssüf edirik ki, bu hadisə baş verib" açıqlaması da həmin mən dediyim üzrxahlıq idi. Sadəcə, bir az gec oldu. Hadisə baş verəndən sonra demək olardı ki, indi oldu, təyyarə sərhədimizi keçmişdi deyə baş verdi... Amma biz istəmirik ki, münasibətlər gərginləşsin. Mən bunu arzulayırdım. Amma bu açıqlama bir az gec oldu. Ona görə də münasibətlər belə gərginləşdi.

***- Sizin fikrinizə qarşı çıxanlardan birinin - Fazil Mustafanın arqumenti isə belədir ki, "Rusiya Türkiyənin sərhədində müharibəyə başlayıb və əslində aylardır Türkiyəyə gövdə göstərir. Enində-sonunda bu qarşıdurma hansısa sərt dalana dirənəcəkdi..." Bu məntiqə nə deyəcəksiz?***

- Türkiyə şüurlu şəkildə bu yolu - Rusiya ilə konfrantasiya yolunu seçmişdisə, Rusiyanın mövqeyinin əleyhinədirsə, Rusiya Krıma qoşunu saldığı kimi, Türkiyə də qoşunu türkmənlər yaşayan əraziyə salsın və Rusiya ilə müharibə etsin. Əlbəttə ki, hamımız bu halda Türkiyənin tərəfində olub, onu dəstəkləyəcəyik.

***- Bu polemika çərçivəsində sizi "Rusiyanın adamı" da adlandırdılar, kürd kimi təqdim edənlər də oldu. Sevil Nuriyeva isə sizə münasibətdə maksimum sərt ifadələr sərf etdi. Bu qədər ajiotaj doğuracağını bilsəydiz, bu açıqlamanı verərdizmi?***

- Peşman deyiləm. İndi də o fikirdəyəm ki, o fikirləri barışıq yaratmaq üçün söyləmişəm. Sevil Nuriyevanın aşırı millətçiliyi, isterik səviyyədə münasibətinə görə mən bir az gülümsədim. Çünki hesab edirəm ki, Sevil məni neçə illərdir tanıyır. Bu cür münasibət Rusiyadakı indiki isterik ovqatın təzahürü idi. Mən Sevilə proseslərə sakit baxmağı arzulayıram. Hesab edirəm ki, onun psixikasında problemlər yaranıb. Qalan ittihamlara gəlincə, məni rusiyapərəst, kürd adlandıranlara da gülümsəmə ilə cavab verirəm. Çünki mən bütün varlığımla, qanımla özümü türk hesab edirəm, həmişə Türkiyənin yanındayam, Türkiyəni sevirəm, dəfələrlə Türkiyə ilə bağlı yazılar yazmışam. Türkiyə uğrunda mübarizəyə də hər zaman hazıram. Hesab edirəm ki, Azərbaycanın müstəqilliyinin qorunmasında da Türkiyənin böyük rolu var. Məhz Türkiyəni sevdiyimə görə bu fikirləri söyləmişəm.

❑ **SEVİNC**

# "Hazırda Türkiyə və Rusiyanın bir-birinə böyük ehtiyacı var"

## Razi Nurullayev məhkəməyə müraciət edib, cavab gözləyir; yeni AXCP-nin sədri Türkiyə-Rusiya və Nardaran hadisələrini dəyərləndirdi

**Azərbaycan Xalq Cəbhəsi Partiyasının hüquqi varisi olmaq uğrunda gedən mübarizədə hələ də qalib tərəf məlum deyil. Doğrudur, Razi Nurullayev qanadı bu şansı əldə etməyə daha yaxındır. Ədliyyə Nazirliyinin Əli Kərimli qanadının qurultay sənədlərini geri göndərməsi, əvəzində Nurullayevin qurultay sənədləri ətrafında araşdırmalarını davam etdirməsi bunu deməyə əsas verir.**

R.Nurullayev nazirliyin rəsmi cavabı gecikdirməsi ilə bağlı məhkəməyə müraciət edib. Məhkəmə günü hələ də məlum deyil.

Bu barədə "Yeni Müsavat"a açıqlamasında yeni AXCP-nin sədrinin özü məlumat verdi: "Məhkəmənin vaxtı hələ məlum edilməyib. Cavab gözləyirik. Hazırkı durumumuzu pozitiv hesab edirəm. Çünki partiya quruculuğumuz gözlədiyimizdən yaxşı gedir. Sosial şəbəkələrdə kifayət qədər aktivik. Partiya olaraq mesajlarımızı cəmiyyətə ciddi şəkildə təqdim edirik. Fəaliyyətimizdən sonra cəmiyyətdəki əhval-ruhiyyə dəyişdi. Sübut olundu ki, cəmiyyətə yeni simalar lazımdır. Cəmiyyətin yeni siyasətçilərə, yeni sözlərə ehtiyacı var. Müxalifət qaragüruh olmamalıdır. Müxalifətçi dövlətini sevməlidir. Müxalifət tənqid etmək üçün yaradılmayıb. Nəyisə tənqid edirsənsə, onun çıxış yolunu da göstərməlisən. Azərbaycanda müxalifətin kübar, mədəni olması vacibdir. Bu mesajı da cəmiyyətə çadıra bildik. Müxalifətin üzərindən ac-yalavac, döyülən imici götürülməlidir".

**R.Nurullayev Ədliyyə Nazirliyinin qurultayları ilə bağlı rəsmi cavabı gecikdirməsinə də münasibət bildirdi:** "İlkin ehtimallarımız ondan ibarətdir ki, təqdim etdiyimiz sənədlər araşdırıla bilər. Ola bilsin ki, bəzi məsələlərə münasibətləri tam aydın deyil. Sadəcə, belə düşünürük. Başqa səbəblərin olacağı da istisna olunmur".



### Razi Nurullayev: "İnsanların əllərində qumbara, silah olubsa..."

**Yeni AXCP-nin sədri son günlərdə Türkiyə-Rusiya münasibətlərində yaranan gərginliklə bağlı mövqelərini açıqladı:** "Hər bir ölkənin ərazi bütövlüyü, hava sərhədləri toxunulmazdır. Hava sərhədi pozulursa, həmin ölkədə ərazi bütövlüyü pozulur. Bu baxımdan ərazi bütövlüyü pozulan ölkənin adekvat cavabı normaldır. Amma hesab edirəm ki, hazırda Türkiyə və Rusiyanın bir-birinə böyük ehtiyacı var. Təəssüflər olsun ki, Suriya ilə bağlı hər iki tərəfin maraqları əksdir. Türkiyə Bəşər Əsədin getməsini istəyir, Rusiya isə tamam əksinə çalışır. Burada yaranan narahatçılıq Türkiyəni də səhv addım atmağa vadar edir. Hazırda Türkiyənin xarici siyasətinin əsasını Əsədin hakimiyyətdən getməsi təşkil edir. Rusiyanın isə əsas hədəflərindən biri Əsədin hakimiyyətdə qalmasıdır. Rusların türkmənləri bombalaması Türkiyəni hərəkətə gətirdi. Bu proseslərdə müəyyən mənada Türkiyəyə haqq qazandırmaq olar. Çünki türklərin türkmənlər qarşısında onları müdafiə etməklə bağlı öhdəliyi var. Amma əsas məsələ odur ki, türkmənlərin başına yağan bombalar dayanmadı. Hesab edirəm ki, Türkiyə tələsməməli, Rusiya təyyarəsini vurmamalı idi. Çünki iqtisadiyyatları ciddi fəlakətə uğraya bilər. Rusiyanı da bu təhlükə gözləyir. Artıq Türkiyə addımını atıb. Atılan addımı geri qaytarmaq olmaz. Biz Türkiyənin yanında olduğumuzu, onlara dəstək verdiyimizi bəyan edirik. Onunla birlikdə hərəkət etməyə hazırıq".

**Müsahibimiz Türkiyə fonunda Nardaran hadisələrinə də toxundu:** "Bununla bağlı mövqeyimizi açıqlamışıq. Düşünürəm ki, hakimiyyət vətəndaşlarının dinindən, irqindən, sosial və siyasi statuslarından asılı olmayaraq bərabər yanaşmalıdır. Tərəf olmamalıdır. Eyni zamanda vətəndaşın əlinə silah götürüb dövlətə qarşı çıxması yolverilməzdir. Silahla nəyisə dəyişdirmək cinayətdir. Bu məsələlərə hüquqi qiymət veriləndən sonra mövqeyimizi açıqlaya bilərik. Amma konkret mövqeyimiz hələ ki budur. Dövlət vətəndaşını qorumalı, öldürməməli, vətəndaş da silah götürüb dövlətə qarşı çıxmamalıdır. Əgər orada insanların əllərində qumbara, silah olubsa, asayişi qoruyan polislərin üzərlərinə gediblərsə, bu yolverilməzdir. Bunlar sübut olunmasa, məsuliyyət hakimiyyətin üzərində qalacaq. Amma hesab edirəm ki, ölkəmizdə dindar olmaq üçün heç bir təhlükə yoxdur. Hər bir insan dini ayələrə əməl edib, sitayişini edir və etməlidir. Ölkədə dindən istifadə edib, quruluşu dəyişmək kimi hallara imkan verilməməlidr. Hər şey ortaya çıxandan sonra mövqeyimizi açıqlaya bilərik".

**R.Nurullayev 2018-ci ilin prezident seçkilərinə indidən start verdiklərini də qeyd etdi:** "Hazırda əsas istəyimiz 2018-ci ildə ən uğurlu namizəd olmaqdır. İndidən bu mesajı verməkdə məqsədim odur ki, hər seçkiyə az qalmış müxalifət güclə toparlanır. İnsanlar da yol ayrıcında qalırlar. Kimi dəstəkləmələri ilə bağlı. İnsanları narahatlıqdan qurtarmaq üçün mesajlarımızı indidən veririk. Artıq tərəfdarımız, üzvlərimiz gələcək hədəflərimizi bilirlər. Konkret hazırlıqlarımız gedir. Aydın mesajımız var. Təbii ki, məsuliyyəti böyükdür. Planlarımızı hazırlayırıq. Cəmiyyətə həmin zamana qədər hazırlıqlarımızı sübut etməliyik. Planlarımızı seçki qanunvericiliyinə uyğun həyata keçirəcəyik. Bu gün üçün 2018-ə iddialıyıq".

❑ **Cavanşir ABBASLI**

# "Kiminsə yanında gözümüz kölgəli deyil" - yeni millət vəkili danışdı

## Əflatun Amaşov: "Qismət 2015-ci ilin parlament seçkisinə imiş"

**Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov "Yeni Müsavat"a müsahibə verib. Müsahibimizin parlament seçkilərində iştirakından tutmuş, ölkə gündəmindəki aktual məsələlərə, o cümlədən Azərbaycan mətbuatının durumuna qədər xeyli mövzuları əhatə edən söhbətimizi təqdim edirik:**



***- Əflatun bəy, ötən həftə Milli Məclisin ilk iclasında iştirak etdiniz. Düzdür, siz bundan əvvəl dəfələrlə parlamentin toplantılarına qatılmışdınız, ancaq Mətbuat Şurasının sədri olaraq... Maraqlıdır, deputat olmaq necə hissdir?***

- Doğrudur, mən dəfələrlə parlamentin iclaslarında iştirak etmişəm. Media ilə bağlı müxtəlif qanun layihələrinin müzakirəsinə qatılmışam. Hər halda deputat kimi iştirak fərqlidir. Parlamentin iclas zalına daxil olarkən qeyri-iradi olaraq xəyalımda indiyədək keçdiyim yolu canlandırdım. Hardan-hara, öz-özümə sual etdim. Gürcüstandan Bakıya təhsil almaq üçün ilk gəlişimi, Moskvada oxumağımı, Azərbaycanda jurnalist kimi fəaliyyətə başladığım günləri, ardınca təlatümlərlə dolu illəri, bir az mövcud vəziyyətin, bir az da kasıblığın gətirdiyi çoxsaylı sıxıntıları xatırladım. İnsanları yada saldım - doğmalarımı, əzizlərimi, dünyasını dəyişmiş dostlarımı. Həyat mənim bu səviyyəyə yetişməyimə imkan verdi. Allahıma şükür etdim. Onu da düşündüm ki, bu mərhələyə necə çatmışam? Ağlıma ilk olaraq məsuliyyət hissi gəldi. Deputat olmaq isə bu hissi daha ön plana çıxarır. Söhbət səni tanıyan, dəyər verən hər kəsin, ən əsası seçicilərin qarşısındakı məsuliyyətdən gedir.

***- Qanun Mətbuat Şurasına sədrliyinizi qadağan etmir. Bəs özünüz necə, deputatlıq fəaliyyətinizi məhdudlaşdıra biləcəyini düşünüb quruma rəhbərliyi təhvil vermək istərdinizmi?***

- Seçki platformamda önəmli yeri media ilə bağlı məsələlər tuturdu. Diffamasiya ilə bağlı qanunun qəbuluna yönələn təşəbbüslərin dəstəklənməsindən tutmuş, internet medianın dövlət dəstəyindən faydalanması istiqamətindəki təşəbbüslərədək nələri nəzərdə tutmuşamsa, bunlar hamısı Mətbuat Şurasının sədri kimi apardığım araşdırmaların nəticəsidir, gəldiyim qənaətdir. Şuranın sədri media spektrini daha yaxından görə bilmək üstünlüyünə malikdir. Düşünürəm ki, deputat seçilən şəxs gələcəkdə də media sahəsindəki fəaliyyəti davam etdirmək niyyətindədirsə, bu üstünlük imkanını itirmək istəməz. Ancaq burada növbəti bir məqam da var. Mətbuat Şurası seçkili orqandır. Onun strukturu Azərbaycan jurnalistlərinin qurultaylarında formalaşır. Mən VI qurultayda şuraya sədr seçilmişəm. Növbəti qurultayadək bu vəzifənin icrasına məsulam.

***- Məhz Saatlıdan namizəd olmağınız da suallar doğurdu, dairə təklifi alanda təəccüblənmədiniz ki? Yoxsa seçim özünüzün oldu?***

- Azərbaycanın hər bir bölgəsi mənim üçün əzizdir. Zənnimcə, 62 saylı dairədən deyil, bir başqasından namizədliyimi irəli sürməyimlə bağlı qərara gəlsəydim, nəticə eyni olacaqdı. Ancaq mən Saatlını seçdim. Bir neçə amili nəzərə aldım.

Birincisi onu deyim ki, Gürcüstandan Bakıya təhsil almaq üçün gəlmiş Əflatun Amaşovun Azərbaycanda ilk yol aldığı rayon məhz Saatlı olub. Tələbə yoldaşlarımdan indi haqq dünyasında olan Həbib Əzizovla onun doğma kəndi Sarıcalara getmişdik. Həbib gözəl dost, səmimi və qayğıkeş insan idi. Onun və əzizlərinin timsalında Saatlı da mənə doğmalaşdı.

> **""Reket mətbuat"ın qarşısını almaq ilk baxışdan çətin deyil, hətta asandır"**

Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib Azərbaycana qayıdanda təyinatla Azərbaycan Dövlət İnformasiya Agentliyində, o zamankı «Azərinform»da işləməyə başladım. Təsadüfə baxın ki, jurnalist kimi ilk ayaq basdığım bölgə də Saatlı oldu. Yaxşı yadımdadır ki, rayondan hazırladığım reportaj yüksək qiymətləndirilmişdi. Hətta materiala görə mükafat da almışdım. Səhv etmirəmsə, 300 rubl idi. Yenicə fəaliyyətə başlayan gənc jurnalist üçün bu, böyük uğur sayılırdı. Bütün bunlara görə deputatlığa namizədlik üçün mümkün dairələri nəzərdən keçirərkən məhz Saatlının üzərində dayanmağa üstünlük verdim.

***- Parlament fəaliyyətiniz mətbuat üçün nələr vəd edir? Məsələn, qəzetlərin əl yayımının, xüsusən metroda satışının bərpası, həmçinin reklam məsələləri barədə Milli Məclis tribunasından məsələlər qaldırmağı düşünürsünüzmü?***

- Mətbuat Şurası ötən müddətdə media ilə bağlı bütün məsələlərə nüfuz edə bilib. Qurumun gördüyü işlər göz önündədir. O cümlədən media qanunvericiliyinə dair təklifləri və həmin təkliflərin əsasında reallaşdırılmış tədbirlər də. Şuranın mövcud istiqamətdəki fəaliyyətinin davamlı olması vacibdir. Şübhəsiz bu vaciblik parlament müstəvisində dəyərləndiriləcək və daha tutarlı mövqe qazanmış olacaq.

Düşünürəm ki, media fəaliyyətinin rentabelliyinin artırılması önəmlidir. Bunun ən əsas yolu qeyd etdiniz - reklamdır. Digər vasitəni də diqqətə çatdırdınız. Ümumən söhbət qəzetlərin satış imkanlarının artırılmasından gedir. Əlbəttə, hər iki istiqamətdə təşəbbüslər qaldıracam.

Media və ümumən cəmiyyət üçün daha bir məqam Azərbaycanın informasiya təhlükəsizliyidir. Hesab edirəm ki, bu müstəvidə ayrıca işləmək lazımdır. Azərbaycan üçün daha bir vacib olan məsələ diffamasiyanın dekriminallaşdırılmasıdır. Bu, söz və ifadə azadlığı baxımından prinsipial əhəmiyyət daşıyır. Əlbəttə, Azərbaycanda jurnalistin peşə fəaliyyətinə görə həbsi təcrübəsinə rast gəlinmir. Ancaq hər bir halda jurnalist nəzəri cəhətdən də bunun mümkünlüyünü düşünməməlidir.

Ümumən görüləcək işlər çoxdur. Düşünürəm ki, media ictimaiyyətinin yaxından dəstəyi ilə qarşıya qoyduğumuz vəzifələrin icrasına nail ola biləcəyik.

***- Milli Məclisin hazırkı tərkibi haqqında müşahidələrinizi bilmək maraqlı olardı.***

- Düşünürəm ki, Milli Məclisin hazırkı tərkibi məhsuldar fəaliyyət üçün yetərincə potensiala malik şəxslərdən ibarətdir. Əksəriyyəti şəxsən tanıdığım, qabiliyyəti ilə özünü təsdiqləmiş ictimai-siyasi xadimlərdir. Hər birinə gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

***- Əflatun bəy, "MTN işi" ilə bağlı keçirilən toplantıda reket mətbuata qarşı mübarizə məsələləri daha geniş müzakirə mövzusu oldu. Hətta siz özünüz də sərt şəkildə tənqidlərə məruz qaldınız. Doğrudanmı reket mətbuatın qarşısını almaq bu qədər çətindir? Adlar çəkmək mümkün deyilmi?***

- Mən hər zaman tənqid olunuram. Bəlkə də Mətbuat Şurasının sədrini tənqid etməkdən asan iş yoxdur (gülür). Ancaq biz tənqidlə qərəzi bir-birindən ayırmağı bacarırıq və fikir bildirənlərə münasibətimiz də bu kontekstdə formalaşır. Kimin hansı məqsədlə hansı sözü işlətməsindən gözəl xəbərdarıq. Susmağımız heç də çəkingənliyimizdən deyil. Sadəcə, sözünün mahiyyətini anlamayanlara nə cavab verəsən ki?



> **"Mən hər zaman tənqid olunuram; bəlkə də Mətbuat Şurasının sədrini tənqid etməkdən asan iş yoxdur"**

Mən sədri olduğum təşkilatın mediamızın saflaşması uğrundakı fəaliyyətini düz yol hesab edirəm. Bu yolda kiminsə yanında gözümüz kölgəli deyil. Əlbəttə, bacardığımız və bacara bilmədiyimiz işlər var. Doğru qeyd edirsiniz ki, Mətbuat Şurası dəfələrlə mətbuat adına ləkə gətirən qəzetlərin kimlərsə tərəfindən himayə edildiyinə dair məsələ qaldırıb. Bu istiqamətdəki fəaliyyətimizin müəyyən mənada səmərəsiz qalmasının şahidi olmuşuq. Görünür, bir çox işlərin tənzimlənməsinin zamana ehtiyacı var.

Qeyd etdiyiniz toplantıda isə vurğu onun üzərinə qoyulmuşdu ki, bir çox tanınmış media orqanlarımız şərti olaraq adlandırdığımız "MTN işi" ilə bağlı məhz həmin "reket nəşr"lərdə gedən məlumatları tirajlayırdılar. Biz bunun yolverilməzliyini bildirdik. Tədbirdə hamı var idi. Orada da qeyd etdim ki, hər kəs yanında oturan adamlara baxıb konkret təqsirkarları görə bilər. Bizi bir-birimizdən yaxşı heç kəs tanımır.

Biz media mənsubları cəmiyyətin etalon kimi qəbul olunan kəsimiyik. Bizdən olmaq istəyənlər, peşənin həqiqi daşıyıcısı olmaq istəyənlər varlıqlarını sürdürəcəklər. Bu, peşə prinsiplərinə dəyərdən, sədaqətdən keçir. Dəyər və prinsiplər içərisində haqqı bəyan etmək mühüm əhəmiyyət daşıyır. Jurnalistin haqq bildiyi şey cəmiyyətin maraqları ilə uzlaşmalıdır. Əlbəttə, "MTN işi" ictimailəşmiş hadisədir. Jurnalistlərin mövzuya müraciəti təbiidir. Ancaq biz medianın həssas olmasını vacib sayırıq. Jurnalistin açıqladıqları vətəndaşın dövlətə inamını sarsıtmamalı, idarəçilik sistemində xaos təsəvvürünün formalaşmasına rəvac verməməlidir. Bu dövlət hamımızındır. O, canlı orqanizmdir, harasındasa yara varsa, yalnız o hissəni, obrazlı desəm, ya müalicə etməli, ya da kəsib atmalıyıq.

"Reket mətbuat"dan danışırıq. Onun qarşısını almaq ilk baxışdan çətin deyil. Hətta asandır. Ancaq gərəkdir ki, qanuni mexanizmlər işə salınsın. Mətbuat Şurası dəfələrlə bu barədə məsələ qaldırıb. Bir çox hallarda mövcud xüsusda irəli sürdüklərimiz media ictimaiyyəti tərəfindən yetərincə dəstəklənməyib. Belə hallar da olub ki, təşəbbüsümüz şuranı söz və ifadə azadlıqlarını məhdudlaşdıran quruma çevirməyə cəhd kimi qələmə verilib. Özü də bu iddianı irəli sürənlər normal jurnalistlər olublar. Hamımızın tanıdığı şəxslər. Bu adamlar, yeni narazılar prinsipcə medianın mütərəqqi kəsimini təşkil ediblər. Belələrinin fikir və düşüncələri fərqli olsa da, heç bir halda media adına ləkə gətirənlərin sırasında yer almayıblar. Onların nəyə görə narahatlıq keçirdiyini anlaya bilməmişik. Ancaq bilmişik ki, müəyyən siyasi baxışlar səbəbindən söz və ifadə azadlığı ətrafında manipulyasiyaya yol verirlər. Hətta "qara siyahı"ya saldığımız kütləvi informasiya vasitəsinin təmsilçisinin söz və ifadə azadlığı ilə əlaqədar toplantıda başda əyləşdirildiyini də görmüşük. Bilirsiniz, elə dəyərlər var, gərək tapdalanmasın. Biz də ətrafımıza diqqət yetiririk. Elə düşünməyin ki, hamını sağlam görürük. Bəzən bu qarışıqlıq bezdirici təsir bağışlayır. Söylədiyin fikrin qeyri-səmimi anlaşılmasından çəkinirsən. Bu labirintdə itib-batmamaq üçün gərək konkret qanuni mexanizmlər olsun. Media müstəvisində Mətbuat Şurası adlı bir qurum varsa, təşkilatın konkret səlahiyyətlərdən irəli gələn təsir vasitələri olmalıdır.

***- Bəzən elə bir rəy yaradılır ki, az qala bütün baş verənlərə görə mətbuat günahkardır. Lakin hətta Prezident Administrasiyasının rəsmisi, prezidentin köməkçisi Əli Həsənovun dəfələrlə çağırış və tövsiyələrlə çıxış etməsinə baxmayaraq, müvafiq dövlət qurumları, mətbuat xidmətləri səviyyəsində belə, media ilə işləməyə maraq göstərmir. Nəticədə cavabsız qalan sualların yerini şayiələr, dezinformasiyalar tutur. Vəziyyətin dəyişməsi üçün bəlkə Mətbuat Şurası daha bir təşəbbüslə çıxış etsin?***

- Mətbuat Şurası həmişə qeyd etdiyiniz istiqamətdə təşəbbüslər qaldırıb. Diqqət yetirsəniz, görərsiniz ki, dövlət qurumlarının informasiya verilməsinə məsul struktur bölmələrinin fəaliyyətinə nəzər salmışıq. Tənqidlərimiz çox olub. Heç də düşünmürəm ki, bu istiqamətdəki vəziyyət dözülməzdir. Media ilə işini günün tələbləri çərçivəsində quran mətbuat xidmətlərinin sayı kifayət qədər artıb. Əlbəttə, tam yarıtmaz şəkildə varlıqlarını sürdürən mətbuat xidmətləri də var.

Bilirsiniz, mətbuat xidmətlərinə münasibətdə tənqidlər konkret hadisə kontekstində ortaya çıxır. Əlbəttə, dövlət qurumlarının informasiya verilməsinə məsul strukturlarının çevikliyinin artırılmasına ehtiyac var. Bizim bu istiqamətdə müzakirələrimiz çox olub. Bəzən mətbuat xidmətinin özü bir məsələni dəqiqləşdirmək üçün xeyli vaxt itirir. Halbuki həmin şəxs cəhd göstərir ki, medianın tələbini ödəsin. Buna görə də, əlbəttə, əlavə təşəbbüslərə ehtiyac var və bu cəhət gələcəkdə mütləq nəzərə alınacaq.

***- Mətbuat orqanlarının fəaliyyətinin dayandırılmasını mümkün edən son dəyişikliklər mətbuat üçün ciddi problemlər yarada bilərmi? Bu barədə narahatlıqları bölüşürsünüzmü?***

- Fəaliyyəti ciddi qarşılanan, media orqanı kimi peşə dəyərlərini gözləyən, hüquqi şəxs olaraq qanunvericilikdən irəli gələn tələbləri yerinə yetirən heç bir KİV məsələdən narahat olmamalıdır. Əslində narahatlıq üçün əsas da yoxdur. Əsas olan ölkədə media fəaliyyətinə konseptual baxışdır. Bu baxış medianı azad və məsuliyyətli görməyə hesablanıb. Medianın azadlığı cəmiyyətin mənafelərinin qorunması məsuliyyətini arxa plana atmamalıdır. Düşünürəm ki, bunu rəhbər tutan KİV-lərimiz kifayət qədərdir.

*P.S. Müsahibənin tam mətnini musavat.com-dan oxuya bilərsiniz.*

**❑ Elşad PAŞASOY**
**FOTO: "YM"**



# Nömrələmək lazımdır

Zamin HACI
zaminhaci@gmail.com

(Bir növ dünənki yazının ardıdır)

**Düzü, telekanalizasiyalara baxmıram, o üzdən dost-tanışlar Zəhər TV adlı kanalın (Xəzər bizim gözümüzün işığıdır, onun adını hər kirli yerlə yanaşı çəkmək olmaz) Nardaran hadisələrini... Xədicə İsmayıla bağlamaq cəhdindən danışmasalar bunu heç bilməzdim. O üzdən belə dost-tanışları qınayıram. türkün məsəli, "olmaz-olasınız". Mənim o kanalın səfehliyinə heç vaxt şübhəm olmayıb, üstəlik, hələ hardasa 10 il qabaq televizora baxanda nə mal olduqlarını görmüşdüm. O vaxtlar bunların bir ağsaqqal dədələri vardı, istənilən verilişin içindən çıxıb moizə oxuyurdu. Elə bil telekanal yox, köhnə kənd qəbiristanlığı idi.**

Araşdırmaçı jurnalist, xalqımızın görkəmli övladı Xədicə xanımı bir ilə yaxındır türmədə saxlayırlar və bir həftə qabaq hansısa kənddəki hadisəni onun təsirinə yozmaq təkcə kanalda ağıl azlığına dəlalət eləmir. Bu, eyni zamanda Xədicə İsmayıldan, azad sözdən, jurnalistikadan qorxunun görsənişidir.

Türmədə saxlanan işıqlı insanlarımızdan biri də Tofiq Yaqubludur. Tofiq bəy bu yaxında yazdığım "Ədliyyə Nazirliyinin adı dəyişməlidir" yazısı ilə bağlı mənim üçün çox böyük önəm daşıyan fikirlərini göndərib, istərdim onları sizinlə bölüşüm: "Yazıdakı mövqeyinizi tam dəstəkləyirəm. Nə vaxtsa mən də bu haqda yazmışam. Əlavə olaraq fikrim də var. Daxili İşlər Nazirliyinin də adı düzgün deyil. Düzdür, bu, dünyanın çox yerində belədir, ancaq doğru deyil. Xarici İşlər Nazirliyinin adı doğrudur, çünki bu nazirlik dövlətin xarici işləri ilə məşğul olur. Ancaq cinayətkarlığa qarşı mübarizə ölkəmizin əsas iç işi deyil. İqtisadiyyat, ictimai münasibətlər sistemi, elm, təhsil və sairə daha çox ölkənin daxili işi sayılar, nəinki polislərin cibgirləri tutması. Məncə, bu nazirliyin adı gördüyü işə uyğun dəyişdirilməlidir".

Tofiq bəy dəyişib nə qoymaq təklifini yazmayıb, mən deyərdim Polis Nazirliyi daha uyğundur. Ümumən təklifi bəyənirəm və içəridə də ölkənin irili-xırdalı problemləri haqda düşünən Tofiq bəy kimi insanları zindanda saxlayan, cəmiyyətdən təcrid edən hakimiyyəti qınayıram.

Nardaran problemini öz parnikində yetişdirən, vaxtaşırı ordan məhsul dərən yapistlərə isə başqa bir təklifim var. O boyda toqquşma oldu, bəyəm bunu da Eldar Mahmudova bağlamaq çətin idi? Yaxud Çovdarova. İşləmirlər, çox tənbəldirlər. Gözləyirlər yenə neftin qiyməti qalxsın. O qədər variant batıb gedir, adam heyfsilənir. Örnəklər də verə bilərəm. Vaxtilə rejim Nardaranda yeni "toqquşma" düzəldəndən sonra kəndin guya işsizlik problemini həll etmək fikrinə düşmüşdü. Sizcə, kəndi hansı nazirə tapşırdılar? Bizim qəbilə-mağara sistemində axı hər kəndin öz yiyəsi, kuratoru, balaca "paccahı" olmalıdır. Eh, xalqımızın yaddaşı çox qısadır, hər şeyi unudur: Nardaranı Ziya Məmmədova tapşırmışdılar! Ziya müəllim bir neçə nardaranlını hətta qatarlara bələdçi işinə də düzəltmişdi.

İndi sözümün canı odur ki, kənddə toqquşmanı Ziya müəllimin vurulmasına sintez eləmək mümkün idi. Media da elə bil ölüb. Rəhmətliyin uşağı, bu cür mövzu batdı getdi... Haçana qədər sizin hamınızın əvəzinə işləyəcəyik?

Bir məqamı da mütləq qeyd eləməliyəm. Mən fikir vermişəm, hər dəfə cəmiyyətə nəsə qanqaraçılıq düşəndə, hökumət adlarımızı başımıza qaxır. Bir nazirlikdə ad komissiyası, onun da Sayalı xanım adlı müdiri var, ara qarışan kimi çıxır deyir ki, Taxtabaş və Gicqulu adlarının uşaqlara qoyulmasını qadağan edirik. Vəssalam. Bununla söhbət ölür, millət başlayır öz adlarına lağ eləməyə: "Adə, Məmişqulu adı var e!", "Sən öl, bunların acığına uşağa Onbaşı adı qoyacam" və sairə.

Birdəfəlik nömrələsəydilər, dincələrdik.



# Lukaşenkonun Azərbaycana dəstək təklifinin pərdəarxası

## Belarus Azərbaycanın hansı maraqlarının Avrasiya İttifaqında təmin olunmasına kömək edə bilər?

**Noyabrın 28-də Minskdə Azərbaycan və Belarus arasında sənədlərin imzalanması mərasimindən sonra prezident Əliyev deyib ki, mühüm sənədlər imzalanıb, onlar müxtəlif istiqamətlər üzrə gələcək inkişafımızı müəyyən edəcək: "Prezidentlər tərəfindən Birgə Bəyannamə imzalanmasını xüsusi qeyd etmək istərdim. Bu bəyannamə bizim həyat fəaliyyətimizin demək olar ki, bütün sahələrini əhatə edir".**

Dövlət başçısı qeyd edib ki, sənədlərdə Azərbaycan və Belarusun daim dəstəklədiyi beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyət barədə də danışılır: "İqtisadi, siyasi əməkdaşlıq, humanitar, sənaye istehsalı, hərbi-sənaye sahələrində əməkdaşlıqdan bəhs edilir. Bizim aramızda bütün bu istiqamətlər üzrə çox sıx münasibətlər, dostluğa, qardaşlığa, qarşılıqlı etimada əsaslanan münasibətlər yaranıb. Aleksandr Qriqoryeviçlə bu gün qeyd etdiyimiz kimi, biz bu münasibətləri illər boyu qurmuşuq. Bu gün həmin münasibətlərin səviyyəsi xalqlarımızın mənafelərinə uyğundur və bu münasibətləri strateji tərəfdaşlar arasındakı münasibətlər kimi səciyyələndirməyə imkan verir.

Biz həmişə bir-birimizi dəstəkləməyə çalışmışıq və bundan sonra da bizdən asılı olan nə varsa edəcəyik ki, Belarus və Azərbaycan daim bir-birinin dəstəyini hiss etsin. Beynəlxalq strukturlarda, iqtisadi kooperasiya çərçivəsində də bütün məsələlərdə bizim çox səmimi münasibətlərimiz var".

Belarus prezidenti Aleksandr Lukaşenko da bildirib ki, tərəflər həm də bir sıra sənədlər, o cümlədən prezidentlərin Birgə Bəyannaməsini, Belarusla Azərbaycan arasında sosial-iqtisadi əməkdaşlıq haqqında müqaviləni, 2025-ci ilə qədər olan dövr üçün sosial-iqtisadi əməkdaşlıq proqramını imzalayıblar: "Prezident Əliyevin indicə dediyi kimi, biz həm də əməkdaşlığın yeni istiqamətlərini - informasiya texnologiyaları, nano-biotexnologiyalar sahəsində, hərbi-sənaye kompleksi, elmi tədqiqatlar sahəsində əməkdaşlıq istiqamətlərini müəyyən etdik.

Minsk ilə Bakı arasında həll edilməmiş və həll edilə bilməyən məsələlər yoxdur. Müzakirə üçün qapalı mövzular da yoxdur. Biz etibarlı strateji tərəfdaşlar olmuşuq və yenə də belədir. Bizim azərbaycanlı dostlarımız, Azərbaycandakı qardaşlarımız bilməlidirlər ki, biz Belarusda Azərbaycan üçün əlimizdən gələni edəcəyik. Bizim üçün çətin dövrlərdə sizin oynadığınız rolu, bizə etdiyiniz köməyi həmişə yadda saxlayacağıq. Biz qədirbilən xalqıq və bunu yaxşı xatırlayırıq. Lazım gələrsə biz də Azərbaycan xalqına eyni qaydada həmişə kömək edəcəyik".

A.Lukaşenko onu da bəyan edib ki, əgər bu, Azərbaycanın xeyrinizə olarsa, Belarus Avrasiya İqtisadi İttifaqında Azərbaycanın maraqlarının təmin olunmasına səmimi və açıq kömək etməyə hazırdır.

Göründüyü kimi, Belarus prezidenti Azərbaycana sözügedən ittifaqda dəstək verməyə hazır olduğunu açıq bəyan edib. Bəs Azərbaycan üçün Avrasiya İqtisadi İttifaqında hansı maraqlarının təmin olunması lazımdır və vacib hesab edilə bilər?

**Politoloq Qabil Hüseynli öncə bildirdi ki, Avrasiya İqtisadi İttifaqının bütün mexanizmləri hələ işə düşməyib. O, hələ oturuşmuş, strukturlaşmış iqtisadi-siyasi təşkilat deyil. Bəlkə də gələcəkdə formalaşıb daha yetkin səviyyəyə çatacaq. Amma bu gün hələ ki, o təşkilatın bütün mexanizmləri işləmir:** "Lakin hər halda, bu təşkilat da beynəlxalq təşkilatlar sırasına daxildir. Azərbaycan köhnə sovet məkanına daxil olan ölkədir və bu gün məkan daxilində ölkəmizin həm iqtisadi, həm siyasi xarakterli maraqları var. Bu maraqların başında Azərbaycanın Dağlıq Qarabağla olan maraqları gəlir. Məsələn, tutaq ki, Avropa Şurası bugünlərdə Sərsəng su anbarı ilə bağlı çox önəmli qətnamə qəbul elədi. Bu qətnamədə ermənilərin Sərsəngi işğal etdiyi və Azərbaycan xalqına qarşı ekoloji müharibə apardığı qeyd olundu, Ermənistan əsgərlərinin Sərsəng bölgəsindən çəkilməsini tələb etdi. İndi sovet dövründə inşa edilmiş Sərsəngin infrastrukturunun işləməsinə nail olmaqdan söhbət gedə bilər. Avropa Şurası bunun üçün önəmli rıçaqlara malik deyil. Ona görə də bu məsələni Avrasiya İqtisadi İttifaqı vasitəsilə həyata keçirmək daha asan ola bilər. Yəni Sərsəng su anbarından gələn su ən azı Azərbaycanın aran Qarabağın 6-7 rayonunu su ilə təchiz edirdi. İndi Azərbaycanın həmin rayonları su sarıdan ciddi problemlər yaşayır. Odur ki, Belarusun bu məsələdə Avrasiya İqtisadi İttifaqı xətti ilə Azərbaycana dəstək olmasını, Ermənistana təsir etməsini Azərbaycanın maraqlarının müdafiəsi hesab edə bilərik.

Belarus prezidenti səmimi adamdır və başqa siyasətçilərdən fərqli olaraq göründüyü kimi olan adamdır. Onun Azərbaycanla bağlı fikirlərini səmimi saymaq olar".

**Politoloq daha bir problemlə bağlı Belarusun Azərbaycanın maraqlarından çıxış etməsinin və müsbət nəticə əldə etməyin mümkünlüyünü dedi:** "Ermənilər vaxtaşırı olaraq işğal etdikləri Azərbaycan ərazilərində irimiqyaslı yanğınlar törədir. Bu yanğınlar faunа və floranı məhv etməklə yanaşı, bəzən təmas xəttini keçərək ölkənin kənd təsərrüfatı rayonlarına sıçrayır, təsərrüfata ziyan vurur. Azərbaycan ərazilərinin yandırılması məsələsinə son qoyulmasına Avrasiya İqtisadi İttifaqı vasitəsilə Ermənistana təsir etməklə nail olmaq olar. Bu məsələni Belarus Azərbaycanın xahişi ilə qaldıra bilər. Avrasiya İqtisadi İttifaqı başqa maraqlarımızın da həyata keçməsi üçün iş aparıla bilər. Məsələn, bu yaxınlarda Samur keçid məntəqəsində Azərbaycandan Rusiyaya gedən kənd təsərrüfatı mallarının keçirilməsi dayandırılmışdı. Belə vəziyyətin təkrarlanmaması üçün Belarus Avrasiya İqtisadi İttifaqında məsələ qaldıra bilər. Belarus prezidenti bu məsələdə Rusiya prezidentindən daha təkidlə xahiş və tələb edə bilər. Azərbaycan özü sözsüz ki, özü bu məsələlərlə bağlı Rusiya ilə danışıqlar aparır. Amma Avrasiya İttifaqının üzvü olan bir ölkə kimi Belarusun da bu məsələdə addımlar atması işin xeyrinə olar. Bir çox digər məsələlərdə də Belarus prezidentinin Rusiya prezidenti ilə münasibətlərindən, Belarusun Avrasiya İqtisadi İttifaqında üzvlüyündən yararlanmaq mümkündür".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 267 (6295) 1 dekabr 2015

# Türkiyənin Rusiya üzərində mühüm diplomatik qələbəsi

**"Su -24" məsələsində Kremlin yanlış taktikası qardaş ölkəni Rusiyadan sürətlə uzaqlaşdırır; Avropa Birliyi-Ankara əməkdaşlığı üçün yeni səhifə açılıb; rusiyalı analitik Putinə "Avropanın xəstə adamı" dedi...**

**"Su-24" insidentindən sonra Rusiya rəhbərliyi Türkiyəyə qarşı iqtisadi xarakterli məhdudiyyətlər tətbiq etməkdə israrlıdır. Artıq prezident Vladimir Putin bununla bağlı xüsusi sərəncam da verib, Rusiya hökuməti isə qadağalar tətbiq olunacaq mal və xidmətlərin siyahısını dünən elan eləməli idi.**

Bu yerdə bir daha vurğulamaq zərurəti var ki, özü Qərbin güclü maliyyə-iqtisadi sanksiyalarından əziyyət çəkən bir dövlətin onun bazarını zənginləşdirən tərəfdaş bir ölkəyə qarşı sanksiyalar tətbiq eləməsi absurdların absurdudur və iqtisadçı ekspertlərin də təsdiqlədiyi kimi, ən əvvəl Rusiyanın ziyanına işləyəcək. Nədən ki, Türkiyənin şimal qonşumuza qarşı tətbiq edəcəyi əks-embarqolar qat-qat təsirli olacaq.

***

Putin Ankaraya qarşı məhdudiyyətlər haqda düşünürkən, daha dəqiqi, öz ölkəsini iqtisadi intihara sürükləyərkən dünən bəlli olub ki, Avropa Birliyi yanvarın 1-dən etibarən Rusiyaya qarşı sanksiyaları daha 6 ay uzatmağa hazırlaşır. Bu, Türkiyə-Rusiya iqtisadi savaşında Qərbin, Avropa Birliyinin kimin tərəfində olduğunu açıq göstərməklə yanaşı, Moskvaya da bir siqnaldır ki, "Su-24" məsələsində o, Türkiyənin yanındadır.

Bu, insidentdən sonra Ankaranın ondan əsassız şəkildə üzrxahlıq gözləyən Moskvaya qarşı ilk siyasi-diplomatik uğuru sayıla bilər. Bu harasıdır, Rusiyanın NATO üzvü, bölgənin ən qüdrətli dövləti və supergücü kimi Türkiyəyə qarşı-demarşı və aqressiv addımları Avropa Birliyi üçün qardaş ölkənin siyasi-hərbi dəyərini artırıb. Türkiyə ilə Avropa Birliyi arasında əldə edilən son anlaşma buna sübut sayıla bilər.

Məlumdur ki, ikitərəfli danışıqları Avropa Komissiyasının sədri Jan-Klod Yunker, Avropa Birliyinin rəhbəri Donald Tusk və Türkiyə baş naziri Əhməd Davudoğlu Brüsseldə aparıblar. Tərəflər arasında əldə olunan razılığa və qəbul edilən birgə bəyanata əsasən, "Türkiyə Avropa Birliyi qarşısında götürdüyü öhdəlikləri yerinə yetirərsə, gələn ilin oktyabr ayından etibarən bu ölkə ilə Avropa Birliyi arasında vizasız rejim tətbiq ediləcək".

Eyni zamanda Türkiyəyə miqrant məsələsi ilə bağlı 3 milyard avro ayrılması və ölkənin Avropa Birliyinə üzvlüyü prosesinin sürətləndirilməsi qərara alınıb. Bu məqsədlə hər il Avropa Birliyi ilə Türkiyə arasında toplantılar keçiriləcək.

***

Sözsüz ki, son proseslərdə "Su-24" presedenti ilə bağlı Moskvanın tutduğu aqressiv mövqe az rol oynamayıb. Rusiyanın Türkiyəni özündən uzaqlaşdırması onsuz da Qərbin marağında idi. Ən azından Kremlə qarşı Krıma görə tətbiq edilən iqtisadi sanksiyaların effektliliyi, Rusiyanın təcriddə saxlanması üçün Ankara-Moskva soyuqluğu AB və ABŞ-a çoxdan gərək idi.

Üstəlik də soyuqluğun miqrant böhranının fonunda baş verməsi Türkiyə-AB yaxınlaşması üçün məqbul şəraitin yetişməsinə təkan verdi, həlledici rol oynadı. İndi artıq Qərb Rusiya qarşısında Türkiyəyə təkcə maliyyə köməyi göstərmir *(düzdür, 3 milyard avro Türkiyə üçün böyük məbləğ deyil və Davudoğlunun dediyi kimi, daha çox siyasi məna daşıyır)*, paralel surətdə həm də onun AB-yə üzvlüyü yolunu açır, Rusiyanı isə bir az da taqətdən salmaq üçün sanksiyaların ömrünü uzatmağa hazırlaşır.



Situasiyadakı yeni gəlişmələr, şübhəsiz, rəsmi Moskvaya yaxşı heç nə vəd eləmir və ona ünvanlı çox neqativ mesajlardır. Bu çatdırışlar həmçinin o anlama gəlir ki, Rusiya ağılsızlıq edib Türkiyəyə qarşı hərbi ekspansiyaya cəhd eləsə, önündə Avropa Birliyini də görəcək. Belə bir nəticə "Su-24" olayından dolayı Ankaranın Moskva üzərində ilk və çox mühüm diplomatik qələbəsi hesab oluna bilər.

Onu da yada salaq ki, Türkiyə bir neçə dəfə Vahid Avropa Ordusunun (VAO) özəyini təşkil etməyə hazır olduğunu bəyan edib. AB-Ankara əməkdaşlığının genişlənməsi Rusiya aqressiyası fonunda bu mövzunu da gündəmə daşıya bilər. Kəsəsi, ABŞ Kremlin sayəsində Türkiyəni təzədən qazanmış kimidir. Təbii ki, qardaş ölkə də uduşdadır.

***

Lakin belə görünür, Rusiyanın siyasi isteblişmenti proseslərin bu yöndə inkişafının fərqində deyil. Ölkənin azsaylı ağıllı başları isə bunu aydın görür və obyektiv qiymətləndirirlər. Tanınmış telejurnalist və analitik Yevgeni Kiselyov də o sıradadır. Onun Kremlin Türkiyəyə münasibətdə yanlış siyasətini nəzərdə tutaraq, tarixi paralelliklər kontekstində yazdığı böyük məqalə Rusiyadakı qaynar başlar üçün soyuq duş effektli və ibrətamiz sayıla bilər.

**Məqalədən kiçik sitat:** "Mən bilmirəm, Kremldə tarixə aid kitabları oxuyurlar, ya yox, amma lazımdır. Doğru, tarixi paralelliklər qüsurludur, ancaq yeni rus-türk savaşının qızışdığı bugünkü günlərdə - Allaha şükür ki, hələlik əsasən soyuq müharibə gedir - indiki hadisələri uzaq dövrün olayları ilə müqayisə eləmək adamın ürəyindən elə keçir ki...

Eynilə bizim günümüzdə də Rusiyanın Türkiyəyə təzyiqləri onun üzvlüyünə illərdir can atdığı Avropa Birliyi ilə yaxınlaşması prosesini sürətləndirib. Vaxtilə Putin hamını inandırmağa çalışırdı ki, Ukraynaya qarşı hibrid müharibəyə başlamaq yetər ki, Ukrayna param-parça olsun və ölkənin yarısı onun ayağına düşsün. Bu, baş vermədi. Maraqlıdır, indi də o inanır ki, Türkiyəyə qarşı başqa bir hibrid müharibəsində - informasiya, psixoloji, sanksiya, viza müharibəsində uğur qazanacaq?

Bir zaman rus çarı I Nikolay Türkiyəni "Avropanın xəstə adamı" adlandırmışdı. Bu gün əlbəttə ki, Türkiyə Avropa tipində yetkin demokratik dövlət deyil, amma sağlamlığı ümumən qaydasındadır. Avropanın xəstə adamı tamam başqasıdır və onu siz tanıyırsınız..."

**Necə deyərlər, şərhə ehtiyac qalmır.**

**❑ Siyasət şöbəsi**

# Azərbaycanın vasitəçilik təklifinə Bakıdan və Moskvadan dəstək

**Politoloq: "İstənilən halda barışıq üçün cəhd göstərməyə ehtiyac var, çünki biz də bu savaşdan əziyyət çəkirik..."**

**Rəsmi Bakı "Su-24" qırıcısının vurulmasından sonra Türkiyə ilə Rusiya arasında yaşanan gərginliyin aradan qaldırılması üçün öz tərəfindən xoş məram nümayiş etdirib. Artıq dövlət başçısı səviyyəsində bu mövqe ifadə olunub.**

Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan Türkiyə-Rusiya münasibətlərindəki gərginliyin azaldılması və aradan qaldırılması istiqamətində səylərini göstərməyə hazırdır. Ölkə rəhbəri twitterdə yazıb ki, Azərbaycan həm Türkiyə, həm də Rusiya ilə tarixi əlaqələrə malikdir və iki dövlət arasında gərginlikdən təəssüf və narahatlıq keçirir.

Hazırkı durumda həm Rusiya, həm də Türkiyə ilə normal münasibətlərinin olması, üstəlik, körpü rolunu oynaması baxımından Azərbaycanın iki böyük qonşu arasında vasitəçi olması nəzəri baxımdan real sayılır. Qardaş Türkiyənin bu təşəbbüsə müsbət yanaşacağı şübhə doğurmur. Lakin prezident R.T.Ərdoğanın təşəbbüslərinə baxmayaraq, rusiyalı həmkarı V.Putin onunla Fransanın paytaxtında BMT-nin sammiti çərçivəsində görüşdən imtina etdi. Rusiya prezidentinin mətbuat katibi Dmitriy Peskov "Ərdoğanla görüş planlaşdırılmır, belə bir görüşdən söhbət getmir. Görüş olmayacaq" - deyib. O, iki prezident arasında telefon danışığını da istisna edib.



Hikmət Hacızadə



Arzu Nağıyev

Putinin Ərdoğanla hətta telefon danışığına belə getməməsi gərginliyin səngimədiyini göstərir. Deməli, bu situasiya vasitəçilərin olmasını daha çox zəruri edir. Müşahidələr belə bir missiya ilə ABŞ liderinin də çıxış edə biləcəyini deməyə əsas yaradır. Ancaq ABŞ-Rusiya münasibətləri də ürəkaçan deyil, Moskva Qərbin sanksiyaları ilə üz-üzədir. Azərbaycan isə bu sanksiyalara qoşulmayan ölkədir. Bu mənada Rusiyadakı ekspertlər də Azərbaycanın vasitəçiliyinə müsbət yanaşırlar.

**"Azərbaycan prezidenti İlham Əliyev bacarıqlı diplomat kimi Türkiyə və Rusiya arasında vasitəçi ola bilər". Avropa.info xəbər verir ki, bu açıqlama ilə Rusiya prezidenti Vladimir Putinin səlahiyyətli nümayəndəsi, politoloq Sergey Markov çıxış edib. Onun sözlərinə görə, Bakının Ankara və Moskva arasındakı münasibətlərin yaxşılaşmasında rolu xeyli ümidvericidir.** "Azərbaycanın həm Moskva, həm Ankara ilə yaxşı münasibətləri var. Bu səbəbdən Bakının şanslarının yüksəkdir", - deyə rusiyalı politoloq bildirib. Bu mövqeni Putinin iradəsi də saymaq olar, hər halda, söhbət səlahiyyətli nümayəndədən gedir.

**Paralel olaraq Qazaxıstanın vasitəçiliyi də təklif olunur.** "Nə qədər çətin olsa da, hesab edirəm ki, birgə komissiya yaradılmalı, araşdırma aparılıb tez başa çatdırılmalı, günahkarlar müəyyənləşdirilməli, səhvlər etiraf olunmalı və münasibətlər bərpa edilməlidir. Mən dostlarımızı - Rusiya və Türkiyəni buna çağırıram"- Qazaxıstan prezidenti Nursultan Nazarbayev belə deyib.

**Politoloq Hikmət Hacızadə şübhə etmir ki, Azərbaycan tərəflər arasında vasitəçi ola bilər:** "Ən azından bunu təklif etməlidir. Həm Azərbaycan, həm də Qazaxıstanın təklikdə belə bir təkliflə çıxış etməsi normaldır. Yaxud hər iki ölkə birlikdə də bu münaqişədə vasitəçi qismində çıxış edə, Moskva-Ankara münasibətlərində barışdırıcı rol oynaya bilər. Ən azı buna cəhd göstərməlidirlər". **H.Hacızadə deyir ki, hətta soyuq münasibətlərdə olan paytaxtlardan ən azı birinin razılığı olmasa belə, təşəbbüsləri davam etdirmək lazımdır:** "İstənilən halda barışıq üçün cəhd göstərməyə ehtiyac var. Axı biz ortadayıq və biz də bu savaşdan əziyyət çəkirik".

**Politoloq Arzu Nağıyev də bildirdi ki, bu gərginlik eyni zamanda region dövlətlərinə, ümumilikdə isə geosiyasi vəziyyətə də təsir edir:** "Ən başlıcası isə bu siyasi sanksiyalar Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsir göstərmir. Bu baxımdan prezidentin belə bir humanist jesti təqdirəlayiq addımdır. Buna görə də Türkiyə-Rusiya münasibətlərindəki gərginliyin azaldılması və aradan qaldırılması istiqamətində Azərbaycan səylərini göstərməyə hazırdır. Azərbaycan prezidenti cənab İlham Əliyev Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşdə də Azərbaycan-Türkiyə əlaqələrinin ən yüksək səviyyədə olduğunu vurğuladı və belə bir təşəbbüslə çıxış etdi".

**Ekspert bildirdi ki, əgər Fransada Türkiyə və Rusiya liderlərinin görüşü baş tutardısa, bir çox məqamlara aydınlıq gətiriləcəkdi. A.Nağıyevin sözlərinə görə, Qazaxıstan prezidenti Nazarbayevin də bu təşəbbüsə qoşulması başadüşüləndir:** "Türk dünyası Nazarbayevi bir sima kimi, siyasətçi kimi qəbul edir və Rusiya ilə də strateji tərəfdaş kimi çıxış edir. Eyni zamanda son olaylar, o cümlədən Orta Asiyaya gedən türk avtomobillərinin də Azərbaycan ərazisindən keçməyə tərəfimizdən verilən icazələr regionun bir-biri ilə sıx əlaqəli olmasının və ümumi maraqdan çıxış etməsinə vacib bir element kimi baxılmasının bariz nümunəsidir".

**❑ Cavid TURAN**

YENİ MÜSAVAT
N 267 (6295) 1 dekabr 2015

**Eldar Mahmudovun tutduğu vəzifədən uzaqlaşdırılması ilə böyük bir cinayətkar dəstənin dəhşətli əməlləri faş oldu. Hazırda MTN-in 19 sabiq vəzifəli şəxsi Cinayət Məcəlləsinin müvafiq maddələri ilə həbs olunub, 1 nəfər ev dustağı edilib, istintaqdan yayınan 1 şəxs barəsində axtarış elan edilib. Bu günə qədər istintaqdan yayınaraq axtarışda olan şəxsin kimliyi haqda məlumat verilmirdi. "Yeni Müsavat"a istintaqa yaxın mənbələrdən daxil olan məlumata görə, iş üzrə axtarışda olan şəxs MTN-çi deyil.**

# "MTN işi"nin yeni təfərrüatları

## "Akula Akif"in evindəki axtarış zamanı gizli bank kodları üzə çıxarıb; ölkəyə talan pullarını saxlamaq üçün xüsusi konteynerlər gətirilibmiş

Sabiq nazirin çevrəsində olan, iş adamı kimi tanınan "Akula" ləqəbli Akif Mustafayevdir. Məlumata görə, o, E.Mahmudov nazir vəzifəsindən çıxarıldıqdan 1 gün sonra təyyarə ilə Bakıdan Parisə uçub. A.Mustafayevin oradan da İspaniyaya getdiyi deyilir. Akif Mustafayevi tanıyanların sözlərinə görə, o, ayrı-ayrı iş adamları haqda MTN rəhbərliyinə lazımi bilgilər verib, onların qanunsuz olaraq dindirilməsində, istintaqa cəlb edilməsində iştirak edib. Sonradan həmin iş adamlarına öz "köməyini" təklif edib. MTN zabitləri ilə iş adamlarının arasında vasitəçilik görüntüsü yaradıb, külli miqdarda pul alıb. O da bildirilir ki, "Akula Akif" bu "xidmətlərindən" sonra MTN-in "əlindən qurtardığı" iş adamlarının biznesinə 20-30 faiz ortaq olurmuş. Onlara "krışalıq" edirmiş. Noyabrın 1-də hüquq-mühafizə orqanlarının əməkdaşları Akif Mustafayevin Bakıdakı evində axtarış aparıb.

Redaksiyamıza daxil olan məlumatda bildirilir ki, "Akula Akif" ölkədən qaçmazdan əvvəl banklardakı hesablarının kodlarını, xüsusi açarları da gizlətməyə imkan tapıb. Onun evində axtarış aparılarkən xeyli qızıl-zinət əşyaları, daş-qaş və külli miqdarda pul müsadirə edilib. Mənzildə axtarış zamanı "Akula Akif"in unutduğu bir bankdakı seyfin açarı və kodu aşkarlanıb. Hüquq-mühafizə orqanları həmin seyfdən xeyli brilyant, qızıl, Bakıda və respublikanın bir çox yerlərində mülklərin sənədləri aşkarlanıb. Seyfdə aşkarlanan brilyant və qızıllar, sənədlər götürülüb.

Cəmiyyətdə müzakirə predmeti olan məsələlərdən biri də sabiq MTN rəhbərliyinin demək olar ki, kütləvi şəkildə məsuliyyətə cəlb edildiyi bir zamanda hələ də bu qurumda müavin vəzifələrində təmsil olunan bəzi şəxslərin - Hilal Əsədov və Nizaməddin Həmidovun öz vəzifələrində qalmalarıdır.



**Tanınmış hüquqşünas Müzəffər Baxış deyib ki, H.Əsədov və N.Həmidovun işdən azad edilməməsi anlaşılmazdır və yalnız Azərbaycan reallığı ilə izah edilə bilər:** "Əslində adları çəkilən hər iki şəxs haqda, xüsusilə də Hilal Əsədov barəsində KİV-də konkret şəxslər tərəfindən ciddi və əsaslı ittihamlar səsləndirilib. Mənim yadımdadır ki, "Karvansaray" ticarət mərkəzində işçilərin başına gətirilən oyunlarda Hilal Əsədovun bilavasitə iştirak etməsi ilə bağlı ittihamlar var idi. Düşünürəm ki, bu şəxslərin bu günə qədər öz vəzifələrini icra etməsi Azərbaycan reallığı ilə bağlıdır. Hesab edirəm ki, Hilal Əsədov və Nizaməddin Həmidovu siyasi hakimiyyətdə kimsə müdafiə edir. Əks halda, onlar bu vəzifədə qala bilməzdilər. Bu şəxslərə qarşı irəli sürülən ittihamlar o qədər əsaslı və inandırıcıdır ki, düşünmürəm ki, onlar öz vəzifələrində sona qədər duruş gətirsinlər.

MTN-də rəhbərliyin özünün başçılıq etdiyi mütəşəkkil cinayətkar təşkilat fəaliyyət göstərib. Mən tam məsuliyyətlə deyirəm ki, orada çalışan demək olar ki, bütün işçilər mütəşəkkil dəstənin təsiri altında olub. Bu, mümkün deyil ki, MTN-də mütəşəkkil dəstənin başında rəhbərliyin özü dayansın, kimsə də həmin dəstənin qanunsuz göstərişlərini icra etməsin. Bu, Azərbaycan reallığında mümkün olmayan bir işdir. Ola bilsin ki, texniki sahədə çalışan hansısa ağıllı bir şəxs bu dəstə tərəfindən verilən hansısa göstərişi icra etməkdən yayınsın. Lakin tam məsuliyyətlə deyirəm ki, bütün əməliyyat işçiləri bu və ya digər şəkildə mütəşəkkil dəstənin qeyri-qanuni göstərişlərinin icrasında bilavasitə iştirak edib. H.Əsədov və N.Həmidov qeyri-qanuni göstərişlərin həm də bilavasitə icraçısı olublar. Ola bilsin ki, bu şəxslərin siyasi hakimiyyətdə bu və ya digər şəkildə dayaqları olduqları üçün hazırda öz vəzifələrində qalıblar. Yəqin ki, məhz bu səbəbdən onlar haqqında tədbir görülmür. Məndə məlumat var ki, prokurorluqda H.Əsədov və N.Həmidov haqda ciddi ittihamlar var. Lakin təəssüflər olsun ki, bu vaxta qədər həmin şəxslərlə bağlı ittiham verilməyib. Əgər "MTN işi" çərçivəsində məsələlərə ədalətlə yanaşılacaqsa, o zaman bu şəxslərə qarşı da ittiham irəli sürüləcək".

Bu arada "MTN işi" ilə bağlı daha bir maraqlı məlumat yayılıb. Həmin məlumata görə, "mahmudovçular" sahibkarları talamaqla əldə etdikləri sayı-hesabı bilinməyən pulları etibarlı şəkildə mühafizə etmək kimi problemlə üzləşiblər. Buna görə də sabiq MTN rəhbərliyi, vəziyyətdən çıxış yolu kimi maraqlı üsula əl atıb. Belə ki, üst-üstə qalaqlanan tonlarla pulun nəmişlik və havasızlıqdan sıradan çıxmasını önləmək, onları bir neçə il sonra belə istifadə üçün yararlı vəziyyətdə saxlamaq üçün Avropa ölkələrindən birindən xüsusi valyuta konteynerləri sifariş edilib. Bank sektorunda istifadə edilən və kifayət qədər baha olan bu konteynerlərdə pulun uzunmüddətli mühafizəsi üçün xüsusi sistem mövcuddur və bu sistem ora yığılan pulların etibarlı şəkildə qorunmasını təmin edir. Bilgili qaynağın sözlərinə görə, sabiq MTN rəhbəri E.Mahmudovun dönəmində Azərbaycana xeyli sayda bu cür konteynerlər gətirilib ki, hazırda həmin konteynerlərin harda olması, onların içərisində nə qədər vəsaitin cəmləşməsi məlum deyil. Hələlik məlum olan bir şey varsa, bu da yerlərdə gizlədilən bu konteynerlərin istintaq qrupu tərəfindən aşkara çıxarılacağı günü gözləməsidir.

❑ E.MƏMMƏDƏLİYEV

# "Delta Telecom"dakı yanğın işi necə baş verib - ilginc təfərrüat

## Osman Gündüz: "Bəlkə yanğın məhz "Delta Telecom"dakı MTN-ə aid serverdə olub? O zaman..."

**"Delta Telekom"un baş direktoru Ramazan Vəliyev ANS-ə müsahibəsində burda baş vermiş qəzadan və onun nəticəsində Azərbaycanın saatlarla internetsiz qalmasının səbəblərindən danışıb. R.Vəliyev öncə onu bildirib ki, yanğın hadisəsi yuxarı hissədə baş verməyib. Sadəcə olaraq, aşağıda baş verən yanğın yuxarı kabelləri zədələyib. Söhbət zamanı məlum olub ki, yanan avadanlıq Milli Təhlükəsizlik Nazirliyi tərəfindən qoyulub: "Söhbət gedən avadanlıq yanğın olan zalda olub, hazırda o avadanlıqlar demontaj olunub, ondan sonra bizim anbarda yerləşdirilib. Yəqin ki, biz o avadanlıqları təhvil verəcəyik. Əslində həmin avadanlıqlar təkcə "Delta Telecom"da deyil, əməliyyat axtarış fəaliyyəti ilə əlaqədar olaraq bütün rabitə operatorlarında quraşdırılıb.Yanğın olan otaq yeni formada bərpa ediləcək. Bir sıra avadanlıqlar tamam söküləcək, tamamilə təmizlənəcək və bütün testlərdən keçiriləcək".**

R.Vəliyev bildirib ki, bu ərazidə olan avadanlıqların bir hissəsi işlək vəziyyətə gətirilib. Əsas problem isə zalda olan avadanlıqların üzərinə tüstü qatı hopması və tüstü qatının kömür qatı yaratmasıdır: "Yanğın hadisəsi FİBER optik kabellərin olduğu hissədə baş verib. Nəticədə bütün FİBER optik kabellər zədələnib. Həmin gecə tüstü çox olduğuna görə işləmək, hətta nəfəs almaq mümkün deyildi. Lakin işçilərimizin qəhrəmanlığı nəticəsində problem qısa müddətdə aradan qaldırıldı. 600 cüt FİBER optik kabel gecə ilə digər zala köçürüldü və rezervlər işə salındı. Problem ondan ibarət idi ki, FİBER optik kabellərin bir-birinə calanması, qaynaq olunması tamamilə təmiz mühitdə həyata keçirilməlidir. Əks təqdirdə, müəyyən problemlər yaşana bilər. Bu tüstülü mühitdə dünyanın heç bir ölkəsində texniki işçiyə nə verirsən ver,



Osman Gündüz

işləməzdi. Bizim texniki işçilər həqiqətən də böyük qəhrəmanlıq edib, interneti 2-3 saat ərzində bərpa edə bildi".

**Milli İnternet Formunun rəhbəri Osman Gündüz "Delta Telekom"da baş verənlərlə bağlı yazıb. O.Gündüz yazısında başqa bir məqama toxunub:** "Biz WhatsApp zənglərinə qoyulan qadağanı müzakirə edəndə məlum oldu ki, bu qadağa MTN tərəfindən "Telekommunikasiya haqqında" Qanunun 39-cu maddəsinə uyğun olaraq ölkədə qurulan dinləmə və izləmə ilə bağlı nəhəng telekommunikasiya sistemi ilə əlaqəlidir. Yəni WhatsApp-ın zəng qadağası mobil operator və "Delta Telecom"luq deyildi, sadəcə, MTN-ə məxsus bu sistemdə WhatsApp trafikinə blok qoyulmuşdu. Bütün ölkələrdə əməliyyat-axtarış tədbirləri məqsədilə yaradılan və bizdə də qurulan bu tip alternativ telekommunikasiya sisteminin avadanlıqlarının, serverlərinin bütün provayderlərdə olduğu, bu sistemin MTN-ə məxsus əsas DATA Mərkəzinin isə "Delta Telecom"da yerləşdiyi bildirilirdi. Güman ki, idarəetməsi də MTN-də olub".

**O.Gündüz həmçinin bu situasiyada ortaya çıxan suallardan da danışıb:** ""Delta Telecom" həmişə elan edib ki, onun bütün sistemlərinin, giriş-çıxışının alternativi var. Varsa onda niyə alternativ işə düşməyib? Məlum idi ki, "Delta"nın bir-iki sərhəd regionlarında da alternativləri var, bəs onda niyə regionlarda da internet kəsildi? Bu nəhənglikdə "Delta Telecom", qlobal dünyanın 4 - 5 yerindən, on min kilometrlərlə məsafədən ölkəyə internet gətirən 15 ilin şirkəti ən azı regionlardakı mərkəzləri ilə internet verə bilərdi axı, ən azı az həcmdə olsa da qısa müddətdə ölkədə internet təminatı yarada bilərdi axı. Bunlar isə baş verməyib. Şübhələnmək üçün əsaslar var ki, əslində orada tam başqa proseslər olub. Bəlkə yanğın məhz "Delta Telecom"dakı MTN-ə məxsus sistemdə və avadanlıqlarda, enerji təchizatında, bütün ölkənin 200 Gb/s sürətində informasiya trafikinə nəzarət edən MTN-ə məxsus serverlərdə olub və həmin sistemi sıradan çıxarıb? Əgər belədirsə, onda hər şey aydındır, çünki mövcud qanunvericiliyə görə, internet ölkəyə "Delta Telcom"un Data Mərkəzindən keçəndən sonra məhz bu nöqtədən paylanmalıdır, deməli, problem burada ola bilərdi, əgər bu sistemin alternativi olmayıbsa, təbii ki, bərpa prosesi də uzun çəkə bilərdi. Həm də düşünürük ki, əgər bu versiya doğrudursa, onda bu artıq təhqiqat qrupuna da, RYTN -ə də və digər əlaqəli qurumlara da məlumdur. Amma nə üçün açıqlamırlar, anlaşılan deyil. Eyni zamanda düşünürəm ki, həqiqətən də əgər belədirsə, yəni bu, MTN-in mülkün sistemi ilə bağlıdırsa onda digər operatorlarda, mobil operatorlarda, provayderlərdə olan MTN-ə məxsus bu tip sistemləri də monitorinq etmək doğru olardı".

**Ekspertin bildirdiyinə görə, telekommunikasiya sektorundakı bu dinləmə və izləmə sisteminin söykəndiyi təhlükəsizliklə və əməliyyat-axtarışla bağlı qanunvericiliyi tamamilə yenidən işləmək doğru olardı. O hesab edir ki, hazırda təhqiqat qrupunun bu yanğınla bağlı açıqlamasının gecikdirilməsi də şübhələr üçün əsaslar yaradır:** "Düşünürəm ki, kifayət qədər ictimai əhəmiyyət kəsb edən, ölkənin informasiya təhlükəsizliyi üçün ciddi təhlükə yaratmış bu məsələ ilə bağlı təhqiqat qrupunun, "Delta Telecom" şirkətinin, XDMX-nin və RYTN-in də baş verənlərin səbəbləri haqqında ictimaiyyətə təfsilatı ilə məlumat verməsi vacibdir".

❑ Sevinc TELMANQIZI

**Parlament seçkilərindən sonra ölkə müxalifəti heç bir siyasi aktivlik nümayiş etdirmədi. Seçkilərin nəticələrindən narazı partiyalar olsa da, onlar etirazlarını, sadəcə olaraq, sosial şəbəkə və müxtəlif bəyanatlar vasitəsilə bildirdilər. Ölkədə baş verən “MTN olayları”, ardınca isə Nardaran hadisələri müxalifətin varlığını tamamilə unutdurub. Bəs Azərbaycan müxalifəti haradadır?**

# “Hay ver bizə, cənab müxalifət”...

## Parlament seçkilərindən sonra niyə ölkə müxalifəti heç bir siyasi aktivlik nümayiş etdirmir?

**KXCP sədrinin müavini Xəzər Teyyublu “Yeni Müsavat”a açıqlamasında bildirib ki, partiyanın nizamnaməsinə uyğun olaraq öz işlərini davam etdirirlər:** “Təşkilatlanma işimizi davam etdiririk. İstəyirik ki, daha da güclü olaq və ölkədə demokratiyanın qələbəsi üçün nəyə gücümüz çatırsa onu da edək. Partiyanın ölkə daxilində və eləcə də regionda baş verən hadisələrlə bağlı həmişə mövqeyi olub, indi də var. Regionda və ölkədə son günlər baş verən hadisələr çox ciddi müzakirə tələb edir. Təkcə bəyanat yox, bunlarla bağlı həm də bir narahatlığımızı ifadə edirik ki, bütün hallarda Azərbaycanın dövlət müstəqilliyi qorunmalıdır və regionda baş verən hadisələrdən uğurla çıxmalıyıq. Ən önəmli məsələ dövlət müstəqilliyimizin qorunmasıdır. Bunun üçün də hesab edirəm ki, siyasi partiyalar soyuq başla məsələlərə yanaşmalı və dövlətçiliyimizə uyğun addımlar atmalıdırlar”.

**ADP sədrinin müavini Həsrət Rüstəmov bildirib ki, onlar ölkədə təkrar parlament seçkilərinin keçirilməsinin tərəfdarıdırlar:** “Məlum olduğu kimi, parlament seçkilərində partiya şəklində iştirakdan imtina etdik. Demək olar ki, nəticələrlə bağlı seçkidən əvvəl artıq öz fikrimizi bildirmişdik. Biz hesab edirik ki, Azərbaycanda parlament seçkiləri təkrar keçirilməlidir. Azərbaycanda sürətlə yetişməkdə olan inqilabi situasiyadan qaçmağın yeganə yolu növbədənkənar parlament seçkiləri keçirmək və ölkənin rasional müxalifət qüvvələrinin bu parlamentdə təmsil olunmasına nail olmaqdır. Demokratik seçki keçirməyə ehtiyac var. Bu zaman Azərbaycanın demokratik dəyişikliklərə dinc yolla addım atmaq şansı əmələ gəlir. Əsas niyyətimiz ondan ibarətdir ki, bu istiqamət üzrə fəaliyyətimizi davam etdirib, öz təbliğatımızı aparaq. Eyni zamanda həm partiya quruculuğu, həm də müxalifətdaxili münasibətlərin saflaşdırılması istiqamətində də müəyyən planlarımız var və bu istiqamət üzrə də fəaliyyətimizi davam etdirəcəyik”.

**AMİP Siyasi Şurasının üzvü Əli Orucov isə bildirib ki, seçkilərdən sonra partiyanın bir neçə dəfə siyasi şurası çağırılıb:** “Partiyanın seçkidən sonrakı yaxın dövr üçün fəaliyyət istiqamətləri və qarşıda duran məsələlər müzakirə olunub. Belə qərara gəlinib ki, AMİP müxalifətdaxili əməkdaşlığın, inteqrasiyanın dərinləşməsi ilə bağlı təşəbbüsləri artırsın. Eyni zamanda ölkədə dialoq mühitinin yaradılması ilə bağlı səylərini və təşəbbüslərini davam etdirsin. Bu bizim üçün vacib istiqamətlərdən biridir. Partiyanın Mərkəzi Şurasının daimi komissiyalarına tapşırılıb ki, müəyyən aidiyyəti sahələr üzrə ölkədəki mövcud problemləri araşdırsın və çıxış yolları ilə bağlı təkliflər versin. Partiyanın yaxın dövr üçün fəaliyyəti həm də ondan ibarətdir ki, təşkilat strukturları daha da gücləndirilsin. Ölkədə son zamanlar xoşagəlməz hadisələr yaşanır. Bunun üçün də siyasi institutların, partiyaların fəaliyyətlərinin genişləndirilməsi və təşkilat kimi daha yüksək səviyyəyə gətirilməsi çox vacibdir. Qarşıda duran yaxın hədəflər bundan ibarətdir. Uzaq hədəflər və strateji addımlar isə partiyanın yaxın zaman üçün nəzərdə tutulan qurultayında tam dəqiqliyi ilə müəyyənləşəcək”.


Xəzər Teyyublu


Həsrət Rüstəmov


Əli Orucov

**MMP sədri Hafiz Hacıyev isə səhər saat 10:00-dan axşam 19:00-a qədər fəaliyyətdə olduğunu bildirib:** “Partiyanın strukturu elə qurulub ki, hər gün partiyadaxili təşkilatlarla ardıcıl olaraq işlər aparılır. Eyni zamanda yeni üzvlər də qəbul edirik. Bu baxımdan partiyamız çox çevik hərəkətdə olan bir partiyadır. Hesab edirəm ki, bizim partiya qədər çevik, təşkilatlanmış ikinci bir partiya çox azdır. Biz işimizi sırf buna həsr etmişik. Parlament seçkilərində iştirak etmədik. Ancaq həmin gündən qərar verdik ki, prezident seçkilərinə hazırlaşırıq. Bununla bağlı da çox ciddi hazırlıq işləri görürük. Bundan sonra da bu işlər davam edəcək. Qarşıdan gələn növbəti il üçün böyük tədbirlər planı da işləyib hazırlamışıq. Proqramımızı xalqa təqdim edəcəyik. Görsək ki, xalq bizimlədir, kütləvi aksiyalara da başlayacağıq. İstəyirik ki, ölkəmizdə daha demokratik cəmiyyət yaradılsın. Hakimiyyətin daxilində buna çox ciddi maneələr var. Biz də çalışırıq ki, ölkə başçısına yardım edək. Hər gün dünyada baş verən hadisələrə açıq şəkildə qorxmadan reaksiyalar veririk. Hər halda, bundan sonra da biz ölkədə və dünyada baş verən proseslərə öz qətiyyətli mövqeyimizi ortaya qoyacağıq. Xalqa qarşı olan məmur təbəqəsi ilə vuruşacağıq. Bunu bizə heç kim qadağan edə bilməz. Hər zaman haqqın yanında olacağıq”.

❑ Əli RAİS

# MSK yenidən formalaşdırılacaq

## Məzahir Pənahov növbəti dəfə sədr olacaqmı?

**Azərbaycan Mərkəzi Seçki Komissiyası (MSK), dairə seçki komissiyaları və məntəqə seçki komissiyaları yenidən formalaşdırılacaq. Seçki Məcəlləsinə əsasən, MSK-nın və aşağı seçki komissiyalarının səlahiyyət müddəti 5 ildir. Hazırkı tərkib 2010-cu ildə keçirilən parlament seçkilərindən sonra formalaşdırılıb, tərkibi 18 üzvdən ibarətdir.**



Seçki Məcəlləsinə görə, MSK-nın 6 üzvü deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) və onların namizədliklərini təqdim edən deputatları, 6 üzvü deputatları Milli Məclisdə azlıq təşkil edən partiyaları təmsil edir. MSK-nın hazırkı tərkibinə Məzahir Pənahov (sədr), Natiq Məmmədov (sədr müavini), Arifə Muxtarova (katib), Mikayıl Rəhimov (katib), üzvlər Şaitdin Əliyev, Fuad Cavadov, Ramiz İbrahimov, Validə Kazımova, Qabil Orucov, Tofiq Həsənov, İlham Məmmədov, Nizami Nadirov, Azər Tağıyev, Tamam Cəfərov, Bəxşeyiş Əsgərov, Almas Qəhrəmanlı, Akif Qurbanov və Etibar Quliyev daxildir.

Onların arasında Akif Qurbanov MSK-da Ümid Partiyasını təmsil edir. Noyabrın 1-də keçirilən parlament seçkilərində Ümid Partiyasının sədri İqbal Ağazadənin deputat olduğu 35 saylı Xətai üçüncü seçki dairəsindən Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri Araz Əlizadə seçilib. Bu da o deməkdir ki, MSK-nın yeni tərkibində Ümid Partiyası təmsil olunmayacaq.

MSK-nın yeni tərkibində dəyişiklik edilməyəcəyi halda yalnız Akif Qurbanovun boş qalan yerinə hansısa azlıqda olan parlament partiyasının təmsilçisi təsdiqlənməli olacaq. Həmin partiyanın parlamentdə ilk dəfə olaraq təmsilçilik əldə eləyən partiyalardan biri (Vəhdət, ASDP, ADMP) olacağı istisna deyil.

MSK sədrinin kimliyinə gəlincə, böyük ehtimalla bu dəfə də hakimiyyət bu vəzifəni Məzahir Pənahova həvalə edəcək.

Yeni Milli Məclisdə YAP 69 deputatla, VHP iki deputatla, BAXCP, ADİSP, BQP, MDHP, ASRP, Vəhdət, VBP, ADMP və ASDP isə hərəsi bir deputatla təmsil olunur. Qalan deputatlar isə bitərəflərdir.

**Vəhdət Partiyasının sədri, deputat Tahir Kərimli “Yeni Müsavat”a açıqlamasında, seçki komissiyalarının yeni tərkibdə formalaşacağının nə vaxt baş verəcəyi ilə bağlı dəqiq informasiyaya malik olmadığını dedi:** “Mən bu məsələ ilə bağlı maraqlanmışam. Məlumatıma əsasən, 2010-cu ilin noyabrında keçirilmiş seçkilərdən sonra seçki komissiyalarının formalaşması 2011-ci il fevral ayının ortalarında həyata keçirilmişdi. Bu dəfə nə vaxt olacağı barədə bizdə məlumat yoxdur. Ola bilər ki, dekabrda və ya yanvarda formalaşsın. Şübhəsiz ki, Vəhdət Partiyası parlament partiyası olduğu üçün seçki komissiyalarında təmsil olunacaq. Müəyyən dairə və məntəqə seçki komissiyalarında yəqin ki, proporsional bölgü nəticəsində Vəhdət də təmsil olunacaq. Mərkəzi Seçki Komissiyasında bizim partiyanın nümayəndəsinin olub-olmayacağını isə dəqiq deyə bilmərəm. Çünki 6 yer var və parlamentdə azlıqda qalan partiyaların sayı 10-dur. İndi görək həmin 6 yerə bu 1 partiyadan hansılarının təqdim etdiyi namizədlər daxil olacaq. Əlbəttə, biz istərdik və arzu edərdik ki, Vəhdət MSK-da təmsil olunsun”.

**MSK katibliyinin media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Şahin Əsədli isə bildirdi ki, qanunvericiliyə görə, Mərkəzi Seçki Komissiyasının yeni tərkibi yeni seçilmiş Milli Məclis fəaliyyətə başlayandan sonra Milli Məclis tərəfindən təsdiqlənməlidir:** “Artıq Konstitusiya Məhkəməsi seçkilərin yekun nəticələrini təsdiq edib və Milli Məclis fəaliyyətə başlayıb. Qanun bundan sonra Milli Məclisə istənilən vaxt Mərkəzi Seçki Komissiyasının yeni tərkibini formalaşdırmaq səlahiyyətini verir”.

❑ E.SEYİDAĞA

# Boş qalan dairədə təkrar seçki nə vaxt olacaq?

## Çingiz Əsədullayevin yeri boş qala da bilər



**Mərkəzi Seçki Komissiyası (MSK) səsvermənin nəticələri ləğv olunan 90 saylı Ağdaş seçki dairəsində təkrar seçkilərin keçirilməsi məsələsinə Konstitusiya Məhkəməsinin noyabrın 1-də Milli Məclisə keçirilən seçkilərin yekunlarına dair qərarından sonra baxılacağını açıqlamışdı. Konstitusiya Məhkəməsinin seçkinin nəticələrini təsdiq etməsindən bir həftədən artıq vaxt keçib. Yeni Milli Məclis də fəaliyyətə başlayıb. 90 saylı dairədə təkrar seçkilərin nə vaxt keçiriləcəyi, ümumiyyətlə, bu dairədə təkrar seçkilər olub-olmayacağı barədə isə hələ heç bir rəsmi açıqlama verilmir. MSK-nın Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Şahin Əsədli “Yeni Müsavat”a bildirib ki, 90 saylı Ağdaş seçki dairəsində təkrar seçkilərin nə vaxt keçirilməsi barədə hələ qərar verilməyib: “Hələ ki bu barədə qərar və məlumat yoxdur”.**

Qanunun tələbinə görə, nəticələri ləğv edilən və ya hansısa səbəbdən deputatsız qalan dairədə üç ay ərzində seçkilər təyin edilməlidir. Ancaq Azərbaycan təcrübəsində müxtəlif səbəblərə görə deputatsız qalmış dairələrdə təkrar seçkilər keçirilmədiyi də məlumdur. 2010-cu ildə formalaşmış parlamentin nümunəsində bunu sübut edən 3 fakt var. Əli Əhmədov, Mübariz Qurbanlı yüksək vəzifələrə təyinat aldıqları üçün deputat mandatlarına xitam verilmişdi. Hikmət Atayev dünyasını dəyişdiyi üçün onun da seçildiyi dairə deputatsız qalmışdı. Bu dairələrin heç birində təkrar seçkilər keçirilmədi. Odur ki, 90 saylı dairədə də təkrar seçkilər keçirilməsə və Ağdaş camaatı beş il deputatsız qalsa, təəccüblənməmək gərək.

Qeyd edək ki, sözügedən dairədən “Azəriqazbank”ın Müşahidə Şurasının sədri Çingiz Əsədullayev üçüncü dəfə deputat mandatı qazanmışdı. Lakin MSK dairədə seçki pozuntularının olduğunu əsas göstərərək nəticələri ləğv etdi.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 267 6295) 1 dekabr 2015



# Metroya girmək üçün mübarizə

Samir SARI

**Bakı yollarında elə bir durum var ki, öz avtomobili ilə hərəkət edənlər piyadalara həsəd aparır, piyadalar isə mənzil başına şəxsi avtomobili ilə gedənlərə. Hər iki tərəf hesab edir ki, digərinə daha rahatdır.**

Düzdür, mən dəfələrlə rahat avtobusda oturaraq yanından keçən alçaq avtomobillərdə əyləşənlərə sözün bütün mənalarında üstdən aşağı baxan, öz vəziyyəti ilə qürur duyan adamlar görmüşəm, amma onlar çox azdır.

Əksər piyadalar istər ki, öz maşınları olsun və "xalxın kişiləri" kimi onlar da tıxacda qalsınlar, yerə gələndə maşını əzib usta yanına aparsınlar. Hətta sırf piyadaların üstünə çirkli su sıçratmaq niyyəti ilə maşın sahibi olmaq istəyənlər də var.

Avtomobili olanlar isə ha "əşi, maşın ikinci arvad kimi bir şeydir, bir aləm məsrəfi var", "hayıf deyilmi ictimai nəqliyyat, tıxacda qalanda düşüb gedirsən, nə də parkinq dərdi çəkirsən" desələr də öz avtomobillərindən düşüb xalqa qarışmırlar.

Ancaq həqiqət budur ki, miniklilərə də çətindir, piyadalara da. Çünki bu ölkədə nəqliyyat çox da ağıllı şəkildə idarə olunmur. Nəqliyyatın intellektual idarə olunması barədə qulağımızı dəng, başımızı keçəl eləsələr də fakt belədir.

Məsələn, metro nəqliyyatında guya ki, səmərələşdirici tədbir görüblər, yeni kart sisteminə keçiblər, amma camaata problem yaradıblar.

Dünən günorta saatlarında şəhər mərkəzinin minik avtomobilləri sarıdan basabas olduğunu nəzərə alaraq "Sahil" metrostansiyasına metroyla getmişdim. Səsi lentə yazılmış qızın sözü olmasın, "Neftçala steyşn"dən minib gedəndə problem olmadı, qayıdanda məlum oldu ki, iş yoldaşımdan birovuz götürdüyüm kartda metroya ödəmək üçün vəsait yoxdur, pul yükləmək lazımdır. Bədbəxtlikdən, 1 manatlığım yox idi. Əlimdə 5 manatlıq əskinas metrodan çıxdım, bir-birilə söhbət edən taksi sürücüsünə yanaşdım: "Buna xırdanız olmaz, metro kartına yükləməliyəm". İkisi də çiynini çəkdi, sanki onlara Trinidad və Tabaqo dövlətinin dollarını təqdim edirəm, ömürlərində belə pul görməyiblər. Yandakı bijuteriya mağazasına girdim, gənc xanımlar gülərüzlə xırdaları olmadığını dedilər. Zərgərlik dükanındakı qız da eyni sözü, amma tam ciddi, azca da qaşqabaqlı dedi. Kosmetika dükanındakı xanım da "yox" dedi, amma bir qısa izahat və bir tövsiyə verdi: "Burda hamı hər gün xırda axtarır; Marketlərdən bir şey alın, xırdalayacaqlar".

Əlac nəydi? Daha bir taksi sürücüsünə müraciət edərək və "vallah, yoxumdur" cavabı alaraq yolun o tayına, marketə girdim. Aha, qara lavaş. Birini götürərəm, pul da xırdalanar. Götürdüm. "Neçəyidir?" "60 qəpiyə". "Buyurun" deyib, beşliyi uzadıram. Qız döyükür: "Mümkünsə, xırda verin, cəmi iki manat xırdamız var, qalıq qaytara bilməyəcəm". Lavaşi yerinə qoyub bayıra çıxıram. Bay, aptek. Ağrıkəsici alaram, xırda qaytararlar. Yanaşıram. "İki dənə aksenfort verin, zəhmət olmasa". Əlimdəki pulu görüb xəbərdarlıq edirlər: "Xırda verin, bizdə manatlıq yoxdur, olanda da metroya girmək istəyənlərə veririk". "Hazırda mən də elə bir problemlə qarşılaşmışam" deyirəm və məlum olur ki, xanımlar mənə kömək edə bilməyəcəklər. Əvəzində onlar mənə yolun o üzündəki "Çudo peçka"nı tuşudur, ordan nəsə bir şey almağımı məsləhət görürlər. Orda işləyənlər də xırdalarının olmadığını deyir, çıxıram, daha bir taksi sürücüsündən beşliyə xırda rica edirəm. Təəssüf. Yanda daha bir market görürəm, içəri girib bir şüşə su götürürəm, kassirə yaxınlaşıram, görürəm, adam masanın üstündə xəbərdarlıq yazıb qoyub: "Yalnız qəpiklə". Hər ehtimala qarşı şüşəni göstərib pulu uzadıram və budur, nəhayət, şans üzümə gülür, satıcı xırda qəpiklər və dörd ədəd manatlıq qaytarır. Lotereyası avtomobil udmuş adam sevinciylə mağazadan çıxıb metroya girirəm. Karta pul yükləyəndə bir cavan oğlan yanaşır: "Əmi, məni də keçirə bilərsənmi?" Niyə keçirmirəm, keç. Nə qədər də şanslı bir adam. O hardan bilsin ki, mən metroya daxil olmaq üçün yarım saatdır mübarizə aparıram və azı 15 adama müraciət etmişəm.

İndi oturub fikirləşirəm ki, bunu bir az sadə etmək olmazdımı? Heç olmasa metro stansiyasında pul xırdalayan bir kassir olsun. Deyilə bilər, beş manatın hamısını karta yükləyə bilərdin. Prinsipcə, mümkündür, amma 5-lik adamın (eləcə də minlərlə başqasının) sonuncu beşliyidirsə, bu, praktiki olaraq mümkün deyil.

# Hüquq müdafiəçisi 53 yaşını da həbsxanada keçirdi

## "İntiqam Əliyevin övladı olduğuma görə bəzən çox avantajlı görünürəm..."

**Noyabrın 30-da həbsdə olan Hüquq Maarifçiliyi Cəmiyyətinin (HMC) sədri İntiqam Əliyevin 53 yaşı tamam oldu. Hüquq müdafiəçisi ikinci doğum gününü də həbsxanada keçirdi. Mətbuat və sosial şəbəkələrdə HMC rəhbərinin ünvanına çoxlu sayda təbrik mesajları ünvanlanır.**



İ.Əliyevin ad günü ilə bağlı oğlu Nəcmi Əliyevlə söhbət etdik.

**N.Əliyev doğum günü keçirməyəcəklərini bildirdi:** "Özü olmadığına görə ad günü keçirməyəcəyik. Atam keçən il olduğu kimi, bu il də doğum gününü həbsxanada keçirdi. Buna görə bizdə bir az məyusluq var. Bu günün əhval-ruhiyyəsi yoxdur. Noyabrın 29-da özü ilə danışdım. Ünvanlanan təbrikləri çatdırdım. Çox sevindi. Hamıya təşəkkür etdi. Həmişə olduğu kimi, yenə də dedi ki, mənə çox diqqət ayrılmasın. Diqqət çox olanda özü narahat olur. Bu baxımdan istəmir ki, çox diqqət ayrılsın. Bildirdi ki, ona diqqət ayıranlar vaxtlarını öz problemlərinə sərf etsinlər. Hətta dedi ki, doğum günümdə belə diqqətləri ni mənə ayırmasınlar. Biz həmişə cəmiyyətin diqqətindən razı olmuşuq. Atamın kifayət qədər geniş əhatəsi var. Hər zaman onu diqqətdə saxlayırlar. Bu həqiqətən bizim üçün böyük dəstəkdir. Bunları atam da yaxşı bilir və ona görə narahat olur".

**N.Əliyev atasının həbsindən keçən 1 il 4 ayın onlar üçün müəyyən çətinlikləri olduğunu qeyd etdi:** "Bizim üçün önəmli olan atamın möhkəm qalmağı, çətin dövrdən keçməsidir. Bundan sonra bizim üçün də çətinliklərin öhdəsindən gəlmək asan olacaq. Vacib olan atamın həbsxanada səhhətinin yaxşı olması, ağır günlərdə verilən dəstəkdir. Təbii ki, İntiqam Əliyevin yoxluğu ailəmizdə hiss olunur. Xüsusilə bir övlad üçün atasının yanında olmaması, özü də istədiyi vaxtlarda, çox çətindir. Amma deyim ki, atamın orada olmasının səbəbi gördüyü işlərdir. Bu işlərlə bir övlad kimi, sadəcə, qürur duyuram. Əgər onun gördüyü işlərin sonu həbsxana idisə, deməli, dözmək bizim borcumuzdur. O, haqsızlığa boyun əyməyib, düz yolda olub, insanların hüquqları uğrunda mübarizə aparıb".



**HMC rəhbərinin ünvanına çoxsaylı təbrik mesajları ünvanlanır; İntiqam Əliyevin səhhəti getdikcə pisləşir**

## Nəcmi Əliyev: "1 il 4 ay qanunsuz həbsdə saxlanılması bizim üçün ən böyük təzyiqdir"

**"İntiqam Əliyevin oğlu olmaq sizə çətinlik yaradırmı" sualımıza müsahibimiz belə cavab verdi:** "Atamın övladı olduğuma görə, bəzən çox avantajlı görünürəm. İntiqam Əliyev elə bir insandır ki, cəmiyyətin istənilən təbəqələrində ona hörmət var. Atam olduğu üçün demirəm. Onun haqqında mənfi fikir səslənmir. Onun övladı olmaq qürurvericidir. Hətta onun övladı olduğumdan çox vaxt hörmətcil oluram, mənə daha çox hörmət edirlər, qayğı, diqqət göstərirlər. Atamın övladı olduğum üçün heç vaxt mənfi halla rastlaşmamışam. İntiqam Əliyevin 1 il 4 ay qanunsuz həbsdə saxlanılması bizim üçün ən böyük təzyiqdir. Onun ailəsi olduğumuza görə təzyiqlə üzləşməmişik. Atam o qədər qətiyyətli, prinsipal insandır ki, hətta hökumət dairələrində belə onun ailəsinə təzyiq etmək istəmirlər. Atam həbs olunsa da, heç bir işi yarımçıq qalmadı. Hətta indinin özündə də digər şəxslər o işləri davam etdirirlər. Həbs olunandan sonra kifayət qədər işlər udub. İşləri də hazırda davam edir".

**Nəcmi bəy yerli və beynəlxalq hüquq təşkilatlarının atası ilə bağlı fəaliyyətlərindən də danışdı:** "İstər yerli, istərsə də xarici təşkilatların fəaliyyətləri bizi müəyyən mənada qane edir. Amma Avropanın mühüm təşkilatlarının fəaliyyətlərini nəzərdə tutursunuzsa, hesab edirəm ki, onların Azərbaycanda baş verən hadisələrə verdikləri reaksiya indiyə qədər adekvat olmayıb. Onlar daha çox siyasi məhbusların azadlığı üçün təzyiq edə bilər, daha çox başqa vasitələrdən istifadə edə bilərlər. Amma təəssüf ki, həmin təşkilatların bəzi maraqları buna hələ ki imkan vermir".

**Hüquq müdafiəçisinin oğlu atasının 54 yaşını azadlıqda keçirəcəyinə ümidlidir:** "Buna hər zaman ümid edirik. Ümidlərimiz heç vaxt ölmür. İnanırıq ki, bu, reallığa çevriləcək. Şəxsimdə buna inanıram. Əlimizdən gələnləri edəcəyik. Atam heç nədən şikayətlənməyi, narazılıq etməyi sevmir. İstəmir ki, cəmiyyətdə, ailə üzvlərində kimsə ondan narahat olsun. Övladı olaraq anlayıram ki, öz yaxınlarından, dostlarından ayrı zaman keçirmək çox çətindir. Xüsusilə ağır rejimli həbsxana şəraitində. Amma hesab edirəm ki, o, azadlıqda olduğu müddətdə fəaliyyəti ilə ortaya kifayət qədər müsbətlər işlər, keyfiyyətlər qoyub".

**Sonda HMC rəhbərinin oğlu atasının həbsxanadakı son durumundan da söz açdı:** "Cəzaçəkmə müəssisəsinə köçürüldüyü ilk günlərdə müəyyən problemlər var idi. İndinin özündə də bu problemlərin bəziləri qalır. Amma hazırda saxlanıldığı şəraitdən elə bir narazılığı yoxdur. Onu qeyd edim ki, səhhəti getdikcə pisləşir. Görüş günlərində onu gördüyümüzdən sonra bu qənaətə gəlmişik. Ciddi müayinəyə ehtiyac var. Amma hazırkı həbsxana şəraitində bu mümkünsüz görünür. O, xüsusi həkim tərəfindən müayinə olunmalıdır. Onu da bildirim ki, atam sağlamlığını qorumaq üçün idmanla məşğul olur. Çalışır ki, gümrah qalsın. Həftənin sonu görüş günümüzdür".

Xatırladaq ki, İntiqam Əliyev 8 avqust 2014-cü ildə həbs olunub. 22 aprel 2015-ci ildə Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə 7,6 il müddətinə azadlıqdan məhrum edilib. Hüquq müdafiəçisi özünə qarşı irəli sürülən bütün ittihamları rədd edir və həbsini hüquq müdafiəçiliyi sahəsindəki fəaliyyəti ilə əlaqələndirir. Beynəlxalq Amnistiya təşkilatı İntiqam Əliyevi vicdan məhbusu olaraq tanıyıb.

**Sonda "Yeni Müsavat" olaraq, İntiqam bəyi təbrik edir, növbəti doğum gününü azadlıqda qeyd etməyini arzulayırıq.**

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 267 (6295) 1 dekabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ məsələsi Ankara-Moskva münasibətlərinin girovuna çevrilir?

## "Su-24" insidentindən sonra Türkiyə üçün Azərbaycan, Rusiya üçün isə Ermənistanın önəmi artıb; **hərbi ekspert:** "Qarabağla bağlı status-kvonun dəyişəcəyinə ümidlər bir qədər arxa plana keçəcək..."

**Noyabrın 24-də Rusiyanın "Su-24" təyyarəsi ilə bağlı yaşanan insident Dağlıq Qarabağ problemi ətrafındakı situasiyaya da təsir edib. Söhbət təkcə Türkiyə-Rusiya münasibətlərinin qəfil pisləşməsindən dolayı bu iki dövlətin münaqişənin həllinə yönəlik ortaq səylərinin uzun müddətə aradan qalxmasından getmir, - hərçənd münasibətlər yüksək səviyyədə olanda da Moskva konfliktin çözümünə yardımçı olmayıb, - həm də ondan gedir ki, işğalçı Ermənistanın Kreml üçün önəmi indi bir az da artıb.**




Sadə səbəbə. Çünki forpost və marionet Ermənistan Rusiyadan ötrü "düşmən Türkiyə" önündə ən vacib cəbhə, plastdarm rolundadır. Kreml Ankaranı təhdid eləmək istəsə orada atom silahı da yerləşdirə bilər. Demək, Qarabağ məsələsində Moskvanın bundan sonra ermənilərin xətrinə dəyəcək hansısa addımını gözləmək, ümumiyyətlə, inandırıcı görünmür.

Başqa sözlə desək, son vaxtlar aktiv müzakirə edilən "5 rayon məsələsi" - guya Azərbaycanın bir neçə rayonunun işğaldan azad edilməsi üçün Rusiyanın İrəvana təzyiq eləməsi barədə iddialar gündəmdən çıxmış sayıla bilər. Artıq aydındır ki, şimal qonşumuz bölgədə Türkiyənin təsirini hər hansı şəkildə gücləndirəcək heç bir addıma getməyəcək. Azərbaycanın Dağlıq Qarabağ məsələsində uğur qazanması isə elə Türkiyənin də bölgədə uğurlu mövqe əldə eləməsi, Güney Qafqaza təsir imkanlarının genişlənməsi deməkdir.

***

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, analitik Elxan Şahinoğlu da o qənaətdədir ki, baş verən insidentdən sonra Kreml Dağlıq Qarabağ ətrafındakı rayonların azad olunmasında israr etməyəcək. Onun sözlərinə görə, bir çox beynəlxalq məsələlərdə *(Suriya, Ukrayna)* Rusiya ilə ABŞ arasında ciddi fikir ayrılığı qaldığı vaxtda Qarabağ münaqişəsinin həllinin detalları məsələsində Vaşinqtonla Moskvanın razılığa gəlməsi inandırıcı deyil.

"Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsi fonunda Kreml Dağlıq Qarabağ ətrafındakı rayonların azad olunmasında israr etməz, israr etsə də, əvəzində sazişdə referendum tarixinin keçiriləcəyi günü göstərməyə çalışacaq ki, bu da Azərbaycanın maraqlarına uyğun deyil" - qeyd edib politoloq.

Yəni yenə son anda Moskva erməniləri və onların maraqlarını, separatçıları üstün tutacaq. Bu da təbiidir. Çünki hər necə olmasa, Azərbaycandan fərqli olaraq Ermənistan Rusiyanın Cənubi Qafqazda yeganə hərbi-siyasi müttəfiqidir, 50 illiyə icarəyə götürülən forpost ölkədir. Rusiyanın bölgədə yeganə legitim hərbi bazaları da məhz işğalçı Ermənistanda, Gümrüdədir, təcavüzkar ölkənin xarici sərhədlərini, hava məkanını Rusiya hərbi qüvvələri qoruyur.

***

Bu arada Rusiyanın "Kommersant" qəzeti başda olmaqlab nüfuzlu KİV-ləri Türkiyə ilə bağlı Qarabağ məsələsinə də birbaşa dəxli olan yeni iddia ortaya atıblar. İddiaya görə, Türkiyə tərəfi "Su-24" təyyarəsini vurmasından sonra nəinki geri çəkilmək, hətta Rusiya ilə münasibətləri bir az da gərginləşdirmək niyyətindədir.

**Qeyd olunur ki, Rusiyanın saxta "erməni soyqırımı"nı danmağa görə cəza nəzərdə tutan qanun layihəsi hədəsindən sonra Türkiyədən dərhal reaksiya gəlib və:** "Türkiyənin baş naziri Davudoğlu Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarının azad edilməsi üçün hər bir dəstəyi verəcəklərini bildirib". Rusiya KİV-i Türkiyə xarici işlər naziri Mövlut Çavuşoğlunun məhz bu səbəbə Bakıya gəldiyini yazıb.

Başqa bir iddiaya görə, Rusiya Suriyada antiterror əməliyyatları apardığı kimi, Türkiyə də suveren dövlət olaraq Azərbaycanın xahişi və razılığı ilə işğal altındakı Dağlıq Qarabağ və ya onun ətrafında antiterror əməliyyatı apara bilər. Rusiyanın isə buna qarışmaq hüququ yoxdur, ona görə ki, Dağlıq Qarabağ beynəlxalq hüquqa görə, Azərbaycan əraziləridir və üstəlik, onun ətrafındakı 7 rayonda heç vaxt erməni əhali yaşamayıb.

**Politoloq, Putinin yaxın adamı Sergey Markov isə "Su-24" insidentindin sonra bu variantı təhlükəli hesab edir. Sitat:** "Türkiyə və Rusiya arasında müharibənin olmasını heç kim istəmir. Digər tərəfdən isə təhlükəli vəziyyət yaranıb. Suriyada həm Türkiyə, həm də Rusiya öz varlığını göstərməyə çalışır. Hətta Türkiyədə bəzi siyasətçilər Azərbaycanı Dağlıq Qarabağa hərbi müdaxilə etməyə təşviq edir. Halbuki Azərbaycan və Ermənistan arasında müharibə başlayarsa, Rusiya Ermənistanla bağladığı müqavilələr çərçivəsində Dağlıq Qarabağa müdaxilə etmək məcburiyyətində qalacaq. Bu təhlükələr qarşısında son dərəcə soyuqqanlı olmaq lazımdır".

***

Maraqlıdır, o hansı müqavilədir ki, iki ölkəyə - Rusiya və Ermənistana üçüncü bir suveren dövlətin - Azərbaycanın ərazisinə soxulmaq, hərbi qüvvə yeritmək hüququ verir? Bu, elə beynəlxalq hüququn pozulması, hərbi təcavüz deyilmi? Hərgah, nəzərə alanda ki, bu fikirləri hansı ölkənin rəhbərinə yaxın şəxs deyir, o zaman təəccüblənməyə dəymir.

Bu - Rusiyadır ki, dünyanın gözü qarşısında, beynəlxalq hüquq normalarını ayaqaltı edərək, 2008-ci ildə hərbi yolla Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələrini işğal edib, ora öz silahlı qüvvələrini yeridib, orada bazalar qurub, suveren dövlət olan Ukraynaya məxsusi Krımı "öz müqəddəratını təyinetmə" bəhanəsi ilə özünə birləşdirib və ora da qoşunlar yeridib, bazalar qurub. Üstəlik, Donbası "yaşıl adamcıqları" hesabına işğal altında saxlayır.

Bir şey dəqiqdir ki, SSRİ-nin çöküşündən sonra onun hüquqi varisinə çevrilən şimal qonşumuz nəinki hansısa münaqişənin həllinə yardım edib, hansısa konstruktiv təkliflə çıxış edib, tam əksinə öz imperiya maraqları naminə yenilərini yaradıb və yaratmaqdadır.

Hər halda, yaxın tarix, əlalxüsus da Türkiyə-Rusiya münasibətlərinin ən yüksək səviyyədə olduğu 24 noyabradək olan dönəmdə Kremlin Dağlıq Qarabağa dair ciddi təşəbbüslə çıxış etməməsi, yalnız konstruktivlik görüntüsü yaradaraq boş vədlər verməsi bu qənaətə şübhə yeri saxlamır. Ankara-Moskva əlaqələrinin dalana girdiyi hazırkı dönəmdə isə Rusiyadan konstruktivlik gözləməyə heç dəymir.

***

**"Hesab edirəm ki, Türkiyə ilə Rusiya arasında olan gərginlikdən ən çox ziyan görəcək tərəflərdən biri Azərbaycandır". Bu fikirləri salamnews-a açıqlamasında hərbi jurnalist, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov deyib. Ekspert bildirib ki, yaxın vaxtlara kimi Qarabağla bağlı hansısa gözləntilərimiz və status-kvonun dəyişəcəyinə ümidlər çoxalmışdısa, indi bu məsələnin müsbətə doğru dəyişməsinə inam bir qədər arxa plana keçəcək:** "Belə bir durumda torpaqlarımızın erməni işğalından azad olunması istiqamətində hər hansı aktiv döyüş əməliyyatlarının başlayacağını da zənn etmirəm".

"Sözsüz ki, Türkiyənin özü və ona müttəfiq olan ölkələr qardaş ölkəyə üzləşdiyi çətinlikləri dəf etməkdə lazım olan yardımları edəcək. Necə ki, artıq Azərbaycan atmalı olduğu addımlardan və ən önəmlilərindən birini atdı. Prezident İlham Əliyevin təlimatı ilə Orta Asiyaya gedən türk yük maşınları Azərbaycandan keçməklə mənzil başına çatacaqlar", - deyə polkovnik-leytenant qeyd edib.

# Jirinovksi erməniləri satqın adlandırdı

**Ötən gün Rusiya televiziyasında efirə gedən, ölkə prezidenti Vladimir Putinin Türkiyəyə münasibətdə məhdudlaşdırıcı tədbirlər haqqında sərəncam imzalamasına həsr olunmuş "Politika" verilişinin xüsusi buraxılışında Rusiya Liberal Demokrat Partiyasının lideri Vladimir Jirinovski və "Ekspert" jurnalının erməni icmalçısı Gevorq Mirzayan arasında insident yaşanıb.**



Ermənistan KİV-nin məlumatına görə, Jirinovskinin "Türkiyəni ermənilər və kürdlər arasında bölmək lazımdır" bəyanatına Mirzoyanın növbəti replikasına cavab olaraq, rusiyalı siyasətçi bildirib: "Get Ermənistana. Moskvada arxa cəbhədə oturursunuz və nə etməli olduğumuza göstəriş verirsiniz. Ermənistanda yaşamayan hər kəs satqındır. Öz vətəninizə gedin. Onsuz da Moskvanın yarısını tutmusunuz".

YENİ MÜSAVAT
N 267 (6295) 1 dekabr 2015

# Azərbaycanda bu adlar qadağan olundu - siyahı

**Nazirlər Kabineti yanında Terminologiya Komissiyasında hazırlanmış Azərbaycan dilində şəxs adları lüğətinə daxil edilməyən adlar açıqlanıb. Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini Sayalı Sadıqova APA-ya deyib ki, yeni şəxs adları lüğəti hazırlanarkənNazirlər Kabinetinin 12 may 2011-ci il 79 nömrəli qərarı ilə təsdiq edilmiş "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları" rəhbər tutulub.**



Onun sözlərinə görə, həmin qaydaların 1.4-cü bəndində qeyd olunub ki, uşağın mənafeyinə xələl gətirə biləcək, habelə şəxsin cinsinə uyğun gəlməyən və ya gülünc adın verilməsinə yol verilmir.

Sədr müavini bildirib ki, Azərbaycan dilində şəxs adları lüğətinə Ədliyyə Nazirliyində saxlanılan, indiyə qədər şəxs adları ilə bağlı çap olunan lüğətlərdəki seçmə, daha yaxşı adlar daxil edilib.

S. Sadıqova əlavə edib ki, lüğət çap olunandan dərhal sonra "ASAN xidmət" mərkəzlərinə göndəriləcək.

Sədr müavini qeyd edib ki, şəxs adları lüğətinə 5000-ə yaxın ad daxil edilib.

S. Sadıqova Terminologiya Komissiyasında hazırlanmış Azərbaycan dilində şəxs adları lüğətinə daxil edilməyən 217 adı da açıqlayıb.

Həmin adlar bunlardır:

Ansambl, Alak, Boran, Bədil, Bircan, Bəzək, Əbabil, Əyar, Əyyar, Əbi, Əda, Əcəb, Əbiş, Əhya, Ələs, Əlim, Əmanət, Ərəb, Ərçə, Əyalət, Əyal, Ətir, Dəxil, Dalğın, Dilənçi, Dəfinə, Cicigül, Cərulla, Cığa, Cazibə, Carçı, Camo, Canrübə, Canəssa, Cılğız, Çervon, Çələng, Düymə, Fağır, Fərmayiş, Faiz, Fakir, Fani, Fatı, Fəti, Gerçək, Gorus, Güldan, Gülməşəkər, Hambal, Haqq, Həddad, Həkkak, Həmdəm, Həmzat, Xadim, Xeyirxah, Xınalı, Xülqi, İstək, İşıqlı, Ehsan, Katib, Kazbek, Keştazlı, Kiçik, Kimyagər, Kişmiş, Kobar, Kosa, Kotal, Qocaman, Quşdan, Limonad, Portağal, Şüşəbənd, İstəkan, Türmə, Tutma, Kolxoz, Sovxoz, Komsomol, Traktor, Mayor, Meyvə, Məmiş, Mutu, Nahaq, Nakam, Narbuğda, Narkom, Naynay, Naznay, Nazsəhər, Nənə, Nəşə, Nənəş, Nuh, Nuhu, Nurbuğda, Nurmeyvə, Nurnar, Nuruş, Oxçu, Oktaedr, Oktaş, Oktürk, Okuş, Ordu, Ovçu, Padar, Padər, Pakay, Paksoy, Palavand, Pambıq, Parlaq, Payız, Paynaz, Payzər, Pekşən, Pektürk, Peykər, Pişnamaz, Prikaz, Pullu, Pulluzər, Rakit, Rayət, Raykom, Rəftar, Rəğbət, Rəyasət, Ruzbeh, Saat, Saatzər, Sabah, Salamat, Salavat, Saniyə, Saylı, Sədr, Səməni, Səndəlxatun, Səngər, Sərxoş, Səviyyə, Səyahət, Sınaq, Sırğa, Sırğagül, Sofu, Solğun, Sonamö, Soraq, Sovet, Soyuz, Şəkil, Şənlik, Şərqli, Şubay, Şura, Tafta, Talış, Tanıq, Tanrıqulu, Taray, Tarif, Tarzən, Tayfun, Teley, Telıx, Tello, Teloş, Telşan, Təbib, Təbiət, Təbrik, Təhsil, Təqdim, Təqdir, Tənha, Təpər, Tərəqqi, Təşəkkül, Təşəkkür, Təzə, Tiflis, Tiflisə, Tila, Tinə, Toylu, Tövsiyyə, Tufan, Tumar, Tükən, Uçqun, Ufaq, Urvat, Usta, Ustad, Utku, Uyar, Üqbə, Ümeyya, Ünvan, Vilan, Vladlen, Vlas, Volodya, Yaraşıq, Yelizar, Yolçu, Yonca, Yüzbaşı, Zalikə, Zemkom.



## Bakıya yağış, rayonlara qar yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən azvision.az - a bildirilib ki, dekabrın 1-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Səhər və gündüz Abşeron yarımadasının bəzi yerlərində çiskin olacaq, zəif yağış yağacağı ehtimal edilir. Cənub-qərb küləyi əsəcək. Havanın temperaturu Bakıda və Abşeron yarımadasında gecə 7-10, gündüz 13-17 dərəcə isti olacaq.**

Azərbaycanın bəzi rayonlarında yağış yağacaq, dağlıq ərazilərdə sulu qar yağacağı, tədricən kəsiləcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu aran rayonlarında gecə 2-7, gündüz 10-15, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək, gündüz 4-9 dərəcə isti olacaq.



## Bakıda kafe partladı: bir nəfər öldü

**Yasamal rayonunda vətəndaşa məxsus ümumi sahəsi 60 kv.m olan taxta konstruksiyadan ibarət kafedə maye qaz balonunun sızması nəticəsində yanğınla nəticələnən partlayış hadisəsi baş verib.**

Fövqəladə Hallar Nazirliyinin xəbərinə görə, yanğın nəticəsində kafenin yanar konstruksiyaları və ona bitişik "Qeyri-standart avadanlıqları zavodu"nun istehsalat sexinin dam örtüyü 5 kv.m, tavan hissəsi 1 kv.m sahədə yanıb.

Yanğının kəşfiyyatı zamanı 1936-cı il təvəllüdlü Əsli Əhməd qızı Qasımovanın cəsədi yanğınsöndürənlər tərəfindən aşkarlanaraq aidiyyəti üzrə təhvil verilib. Bitişik sexin qalan hissəsi və digər obyektlər yanğından mühafizə olunub. Yanğın saat 11:30-da yanğınsöndürənlər tərəfindən söndürülüb.

Hadisə ilə əlaqədar müvafiq qurumlar tərəfindən təhqiqat aparılır.

## Gənc oğlanın əllərini balta ilə kəsdilər

**Daxili İşlər Nazirliyi Zaqatalada törədilmiş dəhşətli cinayətlə bağlı məlumat yayıb. Lent.az nazirliyin saytına istinadən xəbər verir ki, noyabrın 28-də Zaqatala şəhərində şəhər sakini Araz Musayev münaqişə zəminində həmyerlisi Vüsal Bəşirovun qollarının bilək nahiyəsinə balta ilə xəsarət yetirib.**

Zaqatala rayonunda baş vermiş dəhşətli hadisənin təfərrüatları məlum olub. Lent.az-ın məlumatına görə, Zaqatala şəhər sakini 26 yaşlı Vüsal Bəşirovun əllərini borclu olduğu şəxslər kəsiblər. Zərərçəkənin atası bildirib ki, oğlu şənbə günü Bakıdan rayona qayıdıb. Bundan xəbər tutan həmin şəxslər Vüsalı evdən çağırıblar və naməlum istiqamətə aparıblar. Bir müddət sonra oğlunun telefonuna zəng edən Vahid Bəşirova cavab verən şəxs artıq Vüsalın əllərini kəsdiklərini bildirib.

Zərərçəkənin atası bildirib ki, oğlunun həmin şəxslərə pul borcu olub və bir müddət əvvəl borcun 300 manatını qaytarıb. Borc tam ödənilmədiyindən həmin şəxslər Vüsalı izləyirmiş.

Onu da bildirək ki, V.Bəşirovun hər iki əli biləkdən amputasiya olunub. Həkimlər onun kəsilmiş əllərini bərpa edə bilməyib.

Faktla bağlı Zaqatala Rayon Prokurorluğunda cinayət işi açılıb, hadisəni törətməkdə şübhəli bilinən 30 yaşlı Araz Musayev artıq saxlanılıb. Araşdırmalar davam etdirilir.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Sabunçu rayonu Sülh küçəsi ev 12, m.12. Hüseynov Bilal Mehdi oğlunun adına vrilmiş qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**Sabunçu rayonu Fətəliyev küçəsi ev 42, m.32. Hüseynov Bilal Mehdi oğlunun adına vrilmiş qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



## Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda

- *Arı südü*
- *Mumiya*
- *Möhtəşəm ağ bal*
- *İssık-Kul balı*
- *Esparset balı*
- *Çayek balı*
- *Şan balı*
- *Karkıra balı və s.*

**Xalisi yalnız bu ünvanda:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119

**Tel:** (012) 491-23-82; (051) 922-15-71



## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

YENİ MÜSAVAT
N 267 (6295) 1 dekabr 2015

# Kəndlilər də kredit borcları içində batırlar

## Aqrar sektorda çalışanların gəlirləri orta aylıq gəlirdən 2,2 dəfə aşağıdır; **iqtisadçı ekspert:** "Pul axınını təmin edən iki istiqamət üzrə geriləmə var"

**Paytaxtla yanaşı rayonlarda və kəndlərdə banklara kredit borcu olan kifayət qədər insan var. Rayon və kəndlərdə insanların, sahibkarların əksəriyyəti hansısa işini düzüb qoşa bilmək üçün onlardan istənilən rüşvəti ödəsin deyə borca girirlər.**

Rayonlarda icra hakimiyyətlərinin, hətta kiçik müəssisələrin belə onlara kiçik işi düşən insanlardan rüşvət tələb etməsi ağır vəziyyətdə yaşayan əhalinin güzəranını daha da çətinləşdirib. Rayon və kənd camaatının banklara min, iki min manat civarında borcu olmasına baxmayaraq, bu məbləğ onlar üçün çox böyük rəqəmdir.

Xatırladaq ki, rayonlarda, kəndlərdə əhalinin dolanışığının böyük bir hissəsini paytaxtda çalışan ailə üzvlərinin göndərdikləri məvacib və kənd təsərrüfatı təşkil edirdi. Ancaq baş verən son olaylar hər ikisinə də ciddi təsir edib. Məhz buna görə bölgə əhalisi nəinki banklara olan kredit borcunu ödəyə bilmir, gündəlik ehtiyaclarını belə qarşılamaqda çətinlik çəkir. Bütün bu gərginliklər isə əhalinin borclu təbəqəsini daha qəzəbli edib və onlar sanki hər an partlamağa hazır bomba kimidirlər. Məhz buna görə də əhalinin bu təbəqəsi hakimiyyət üçün ən böyük təhdiddir.

**İqtisadçı ekspert Rəşad Həsənov kənd təsərrüfatı sektorunda çalışanların qazancının orta aylıq gəlirdən 2,2 dəfə aşağı olduğunu dedi:** "Müəyyən vaxtlar rayon, kənd camaatı müəyyən qisim problemləri, hansısa sənədləşmə işi üçün istənilən rüşvəti verə bilmək üçün bankdan kredit götürmək məcburiyyətində qalır. Amma bu, o demək deyil ki, rayon əhalisi kreditləri məhz bu səbəbdən götürür. İlk növbədə ona baxmaq lazımdır ki, regionlarda vəziyyət paytaxt və iri şəhərlərə nisbətən daha çətindir. Burada insanların, xüsusən də kənd əhalisinin böyük bir qismi kənd təsərrüfatı ilə məşğuldur və dolanışığını da buradan təmin edir. Regionlara müraciət etsək görərik ki, kənd təsərrüfatı sektorunda çalışanların orta aylıq gəlirləri təxminən 100 manata qədərdir. Bu isə ölkədə orta aylıq gəlirdən təxminən 2,2 dəfə aşağı deməkdir. Yəni kənd təsərrüfatı ilə məşğul olan əhalinin böyük əksəriyyəti ölkənin az təminatlı, az gəlirli əhalisidir. Hansısa problem ortaya çıxdıqda da bu əhali kreditə, borca, sələmə müraciət etmək məcburiyyətində qalır. Banklar sferanı genişləndirmək üçün regionlara da açılım etdilər. Bu gün ölkədə baş verənlər regionlara da öz təsirini göstərib. Onu da nəzərə almaq lazımdır ki, regionların böyük bir qisminin əsas gəlir mənbəyi xaricdə yaşayan soydaşlarımızın öz ailələrinə, qohumlarına, dostlarına göndərdiyi pullar hesab olunurdu. Artıq bu istiqamətdə ciddi azalma müşahidə edilir. Onu da nəzərə alaq ki, bir çox region vətəndaşı paytaxtda fəaliyyət göstərir, burada işləyir, öz evlərinə müəyyən qədər gəlir aparırdılar. Bu istiqamətdə də artıq regionlardan Bakıya işləmək üçün gələnlərin sayı azalıb. Burada məskunlaşanlar da artıq geri qayıdıb. Bu isə o deməkdir ki, pul axınını təmin edən iki istiqamət üzrə geriləmə var".



**Ekspert kəndçilərin kənd təsərrüfatından da artıq əvvəlki kimi qazanc əldə etmədiklərini bildirdi:** "Kənd təsərrüfatı məsələsində də əvvəlki dövrlərdə Rusiya bazarı nisbətən daha cəlbedici idi. Məhsulların bir qisminin Rusiya bazarlarına daşınması nəticəsində kəndçinin istehsal etdiyi məhsulun qiyməti nisbətən baha idi. Belə olan təqdirdə isə nisbətən daha çox artıq gəlir əldə edirdi. Amma 2014-cü ilin sonu- 2015-ci illər ərzində bazarlarda diqqət etsək görərik ki, yerli istehsallı kənd təsərrüfatı məhsullarında qiymətlərin ucuzlaşması baş verib. Bu da o deməkdir ki, artıq topdan alışda da ucuzlaşma baş verir. Kəndli məcbur olur ki, ucuz qiymətə satsın, çünki alıcılıq azalıb. Bütün tərəflərdən regionlara ciddi iqtisadi sıxıntılar yaranıb. Belə olan təqdirdə də rayon, kənd əhalisinin götürdüyü mini kreditləri belə geri qaytarmaq imkanı yoxdur. Təsəvvür edin, bir ailənin bir üzvünün problemi varsa, bu bütün ailə üzvlərinin gündəlik davranışlarına sirayət edir və sosial gərginlik yaradır. Biz müşahidə edirik ki, həm regionda, həm paytaxtda bir çox insanlar var ki, ümumi bir dalğaya qoşulub. İnsanlar düşünür ki, kreditlərin geri qaytarılmasında ciddi problemlər var, çox adam qaytara bilmir, mən də qaytarmayım, bəlkə bağışlanar, bu borclar silinər. Təbii ki, bu cür düşünənlər az bir qisimdir. Ona görə də banklar, o cümlədən də hökumət müştərilərlə fərdi şəkildə davranmalıdır. Onların maddi vəziyyəti öyrənilsin və hansı vətəndaşın həqiqətən qaytarmaq imkanı yoxdursa, kreditləri müvəqqəti olaraq dondurulsun, bəzilərininki isə bağışlanılsın. Bağışlanmanın yükünü də birmənalı şəkildə bankların üzərinə qoymaq doğru deyil. Çünki belə olan təqdirdə biz bank sektorunu məhv edə bilərik. Bank sektoru son 20 ildə ölkə iqtisadiyyatının ilkin kapital təminatında çox ciddi rol oynayır. Bundan sonra da bu proses davam etməlidir. Əks halda, iqtisadiyyat gücsüz olar. Bu baxımdan banklarda məsuliyyəti öz üzərinə götürməlidir. Digər tərəfdən, hökumət də bu istiqamətdə bankları hansısa formada maliyyə dəstəyi ilə təmin etməlidir ki, banklar o ağrılı dövrü daha dayanıqlı şəkildə keçə bilsinlər. Fərdi yanaşma tətbiq etməklə o vətəndaşların problemi hansısa formada həll olunmalıdır. Çünki artıq çox ciddi simptomlar görünməkdədir. Kredit borclarının qaytarılmaması ilə bağlı cəmiyyətin gərginliyi günbəgün artır. Bəzi hallarda da bir sıra banklar hansısa quruma, qrupa arxalanaraq vətəndaşa qeyri-qanuni şəkildə hərbə-zorba gəlir, hədələyirlər. Vətəndaşların bir çoxu borc problemini ciddi mənəvi problem kimi qəbul edir. Bu isə onların depressiyaya düşməsinə, sonradan isə nəticəsi pis olan addımlar atmasına səbəb olur. Ona görə də bu istiqamətdə həm banklar, həm də hökumət ciddi addımlar atmalıdır".

❑ **Günel MANAFLI**

# Həbs olunan iş icraçısının yoldaşı prezidentdən kömək istəyir

**2012-ci ildə həbs olunan iş icraçısı Qüvvətəli Süleymanovun həyat yoldaşı Sevda Süleymanova dövlət başçısı İlham Əliyevə müraciət edib. Müraciət müəllifi yazır ki, həyat yoldaşı Qüvvətəli Süleymanov uzun illər tikinti sahəsində çalışaraq vətəndaşlarımızın mənzillə təmin edilməsi üçün çalışıb.**



Çalışdığı tikinti şirkətlərində sərf etdiyi sərmayənin, ona çatacaq əmək haqqının əvəzi olaraq həyat yoldaşına rəsmi sənədlə bir necə mənzil verilib: "2012-ci ildə yoldaşım Qüvvətəli Süleymanovun əmlakını ələ keçirmək istəyən şərikləri onu həbs etdirdilər. Və tikinti şirkətlərindəki bütün nöqsanları yoldaşımın üzərinə ataraq vəzifəli himayədarlarının köməkliyi ilə onun həbsinə nail oldular. Bununla kifayətlənməyib ailəmizə məxsus əmlakı da ələ keçirməyə çalışırlar. Hazırda bu qanunsuz proses davam edir. Mənim və ailəmin başına gətirilən oyunlarda "Afina" MMC, "Olimp" MTK və "Omaks-3" tikinti şirkətlərinin təsisçiləri, həmin şirkətlərlə əlaqəli işləyən "United Credit Bank" ASC və "Deka Bank" kimi banklar əlbirdir. Konkret olaraq deyə bilərəm ki, ərimin şərlənərək həbs olunmasında "Afina" MMC-dən Nail Şahverdiyev, Qurban Mahmudov *(Bakı Apelyasiya Məhkəməsində şöbə müdiri)*, "Omaks" MTK-dan Emil Namazov, Tapdıq Namazov, makler İradə Vəliyeva, Emin Abbasov, Yasin Cabbarov, Bakı Şəhər İcra Hakimiyyətinin hüquqşünası Cəlal Bağırov, Bakı Şəhər Prokurorluğunun əməkdaşı Naibə Tağızadə, Respublika Baş Prokurorluğunun sabiq əməkdaşı, dəfələrlə məhkum olmuş Etibar Qarayev və digər şəxslər iştirak edib".

**S.Süleymanova yazır ki, "Omaks-3" şirkətinin sahibi Emil Namazovla bağlı Xətai Rayon Prokurorluğunda cinayət işi başlanıb:** "Hüquq-mühafizə orqanlarında çalışan bəzi vəzifəli şəxslər də bu prosesdə iştirakçıdır. Onlar bütövlükdə qrup şəklində fəaliyyət göstərirlər. Mən dəfələrlə əlimdə olan faktları hüquq-mühafizə orqanlarına təqdim edərək, həmin şəxslər barəsində tədbir görülməsini xahiş etmişəm. Bununla bağlı Baş Prokurorluqda və Daxili İşlər Nazirliyində qəbulda olsam da heç bir tədbir görülməyib. Əksinə, məni dəfələrlə zorla polis maşınına basaraq Bakı Şəhər Baş Polis İdarəsinə apardılar. Bizim ailənin başına gətirilən oyunlarda məhkəmə, prokurorluq, polis orqanlarının əməkdaşları iştirakçıdır. Bizim ailənin son ümid yeri Sizsiniz. Xahiş edirəm, bizi bu ədalətsizlikdən qoruyun".

❑ **E.HÜSEYNOV**

**P.S Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.**



# Daha 1122 dərmanın yeni qiymətlərlə satışına başlanılır

**Bu gündən Tarif (qiymət) Şurası tərəfindən təsdiq edilmiş daha 1122 dərman vasitəsinin yeni qiymətlərlə satışına başlanılacaq.**

APA-nın xəbərinə görə, sabahdan etibarən ümumilikdə 2282 dərman vasitəsi təsdiq edilmiş qiymətlərlə satışda olacaq.

İndiyədək Tarif (qiymət) Şurası tərəfindən dərman vasitələrinin ticarət adı, təsiredici maddəsinin adı, dozası, farmasevtik forması, ticarət qablaşdırması, qablaşdırma miqdarı, istehsal ölkəsi nəzərə alınaraq 3540 dərman vasitəsinin topdan və pərakəndə satış qiyməti və qüvvəyə minmə tarixi təsdiq edilib.

Dekabrın 21-dən etibarən isə daha 1258 dərman vasitəsinin yeni qiymətlərlə satışına başlanılacaq. Bununla da qiyməti təsdiq edilmiş 3540 dərman vasitəsi yeni qiymətlərlə satışda olacaq.

Qeyd edək ki, indiyədək qiymətləri tənzimlənmiş dərman vasitələrinin satışda olan qiymətləri ilə müqayisədə 46 %-nin qiyməti 2 dəfədən çox, 24 %-nin qiyməti 3 dəfədən çox aşağı salınmış, ümumilikdə 95 %-nin qiymətləri endirilib.

Tarif (qiymət) Şuranın müvafiq qərarlarına əsasən, hər qrup təsiredici maddələr üzrə yeni qiymətlərin qüvvəyə minmə tarixindən etibarən həmin qrupa aid olan, lakin qiymətləri təsdiq edilməyən dərman vasitələrinin satışı yalnız onların qiyməti təsdiq edildikdən sonra həyata keçirilə bilər.

YENİ MÜSAVAT
Son səhifə
N 267 (6295) 1 dekabr 2015



## İtburnu haqqında bildikləriniz

"Allah dərd də verib, dərman da" deyirlər. Əslində dərdi insan özü qazanır, dərman isə Allahdandır. Azərbaycanda 42 növ itburnu bitkisi var. Bunların 36-sı yabanıdır. Sənaye üçün 2 növ daha əhəmiyyətlidir. Bunlar qəhvəyi və qırışıq itburnulardır. Qəhvəyi itburnu kol halında 2 metrə qədər hündürlükdə bitir. 20-25 il ömrü olur. Çiçəkləri açıq və tünd çəhrayı rəngdə olmaqla, ətirlidir. Meyvəsi avqust-sentyabrda yetişir. Vitamin C yetişmə müddətində artır. Ona görə də yetişmiş meyvələr dərilməlidir.

Şaxtalar düşənədək itburnu yığılmalıdır. İtburnuda C vitamini ilk dəfə 1931-ci ildə tapılıb. Lakin bundan çox əvvəl Rusiyada itburnu dişlərin dibindən qan axmaya, yeni C-avitaminozuna qarşı tətbiq edilirmiş.

Ev şəraitində itburnu dəmləmək üçün bir xörək qaşığı itburnu (20 qr) bir stəkan su ilə şüşə və ya emallı ağzı örtük qabda 10 dəq qaynadırlar. Ağzını açmadan bir sutka saxlayıb, sonra ikiqat tənzifdən süzürlər. Onu termosda, təzə qaynamış suda (yarım litrə 20 qr) 10 saat dəmləməklə də hazırlamaq olar. Süzməyə ehtiyac yoxdur.

Dəmləməm gündə iki dəfə bir və ya yarım stəkan içirlər. Dadını yaxşılaşdırmaq üçün şəkər və ya şərbət qatmaq olar. 1-3 yaşında uşaqlara 1/4 stəkan, 3-7 yaşındakılara isə yarım stəkan vermək olar.

İtburnu soyuqdəyməyə, böyrək və qaraciyər xəstəliklərində, öd və sidikqovucu kimi tətbiq edilir. Onun çiçəyindən dəmlənmiş çay qızdırmaya qarşı təsiredici vasitədir.

# Robot qəbul imtahanında 511 bal topladı



Süni zəkaya sahib robot riyaziyyat, fizika, ingilis və tarix fənlərindən ibarət universitetə qəbul imtahanından 511 bal toplayıb. Xəbər.az saytının məlumatına görə, robotun topladığı balla Yaponiya daxilində 441 özəl və 33 dövlət universitetində oxumaq imkanı olduğu bildirilib. Süni zəkaya sahib olan robot topladığı balla Yaponiyada ortalama bal hesab edilən 416 baldan yüksək toplayaraq bir çox tələbədən daha müvəffəqiyyətli olduğunu göstərib. Yaponiyada universitetə qəbul imtahanlarından ən yüksək 950 bal toplanılır. Robotun qəbul imtahanında ən çox topladığı bal isə tarix fənnindən olub. Yeni imtahanda daha çox əzbər suallara yox, daha çox məntiqi suallara üstünlük verilib. Bu layihənin hədəfi süni zəkanın ölkənin ən yaxşı universiteti olan Tokio Universitetinə qəbul olub-olmamasını yoxlamaqdır. Robotun 6 il sonra yenidən imtahan verəcəyi gözlənilir.

# Dünya haqqında bilmədiyimiz maraqlı faktlar

Milyardlarla yaşı olan dünyamız bir-birindən maraqlı məlumatlarla zəngindir. Dünyamız haqqında daha öncə eşitmədiyiniz maraqlı faktları təqdim edirik:

dünyadakı qızılın 99 faizi nüvə hissəsindədir. Onunla Yeri 45 sm qızılla örtmək olar;

ən qədim insan tərəfindən inşa edilən dini məbəd miladdan öncəyə aiddir. Bu, eramızdan 10 min il öncə tikilən Türkiyədəki Göbeklitəpədir;

hər gün 200 min insan doğulur;

dünyanın ən bahalı qurumu Beynəlxalq Kosmik Stansiyadır, onun inşasına 150 milyard dollar xərclənib;

dünyanın ən uzaqdan çəkilmiş fotosu təqribən 6 milyard km məsafədən çəkilib və solğun mavi nöqtə adlanır;

dünyadakı ən dayanıqlı canlı Tardigraddır. O, vakuumlu məkanda 10 gün yaşaya bilir;

dünya nüvəsində 5500 dərəcə temperatur var. Bu, Günəşin səthi ilə eynidir;

Antarktikadakı buz Atlantik okeandakı su ilə eynidir;

indiyədək ən yüksək temperatur 1922-ci ildə Liviyanın əl Azizia rayonunda qeydə alınıb - 57.8 dərəcə;

dünyaya hər gün 8.600.000 ildırım düşür.





## Uşağını donuzlara yedirtdi

ABŞ-da arvadını döyən şəxsi həbs etməyə gedən polislər evdə qorxunc mənzərə ilə üzləşiblər. Axtarışlar zamanı 7 yaşlı uşağın parçalarına rast gəlinib. Cəsəd parçalarının ev sahibi olan Mişel Consun oğluna aid olduğu məlum olub.

Consun 29 yaşlı arvadı ərinin oğlunu döyərək öldürdüyünü, sonra isə itdiyi haqda polisə yalan məlumat verdiyini deyib. Qonşular isə cütlüyün yaşları 1 ilə 11 arasında dəyişən səkkiz uşağı olduğunu deyib. Lakin ailə uşaqlardan birinin itdiyi haqda yalan məlumat yayıb. Polislərin araşdırmaları nəticəsində məlum olub ki, cani ata oğlunu öldürdükdən sonra parçalayıb və donuzlara yem edib.

Balaca uşağın bədəni tam olaraq müəyyənləşdirilməyib. O, arvadını ağır şəkildə döydüyü, silahla yaraladığı və uşağını öldürdüyü üçün həbs edilib.




QOÇ - Sağlamlığınıza fikir verin. Ulduzların düzümü fiziki xəsarətlər alacağınızı da istisna etmir. Tanış olmayan ünvanlara getməyin. Axşama yaxın sevindirici hadisələrin şahidi olacaqsınız.

BUĞA - Yeni xəbərlər yolunuzu gözləyir. Bütün astroloji göstəricilər nahardan sonra ağlınıza gətirmədiyiniz adamların sizə sürpriz vəd edəcəyini xəbər verir. Görüşləri təxirə salmayın.

ƏKİZLƏR - Mübahisəli bir təqvim yaşayacaqsınız. Təmkininizi qoruya bilməsəniz, ciddi münaqişələrə də cəlb oluna bilərsiniz. Odur ki, iş yerində və ailədə emosional çıxışlara son qoyun.

XƏRÇƏNG - Hər mənada uğurlu gündür, bir şərtlə ki, əsəblərinizi cilovlaya biləsiniz. Yalnız xeyirli şeylər arzulayın ki, sizə də xeyir gəlsin. Fəaliyyətdə uğurlarınız arta bilər.

ŞİR - Gün boyu Ay bürcünüzdə olduğundan emosiyalarınızı cilovlamalısınız. Əsas enerjini biznesə həsr edin. Çünki büdcənizi artırmaq və sövdələşmələr aparmaq üçün düşərli gündür.

QIZ - Ümumi gərginliyiniz kifayət qədər səngiyəcək. Ünsiyyətdə olduğunuz insanlarla, ələlxüsus da həmkarlarınızla davranışlarda mülayim olun. Perspektivli təkliflər ala bilərsiniz.

TƏRƏZİ - Yaxşı olar ki, ağır fiziki işlərə, ümumiyyətlə, fəaliyyətə ara verəsiniz. Əsas diqqətinizi istirahətə və gəzintilərə həsr edin. Gələcəyiniz üçün önəmli olan görüşlərdən yayınmayın.

ƏQRƏB - Səhhətinizi qorumağı bacarsanız, ulduzlar sizi əməlli-başlı sevindirəcək. Saat 13-15 arası maraqlı bir təklif alacağınız gözlənilir. Çalışın ki, imtina etməyəsiniz.

OXATAN - Göy qübbəsi varlanma ehtimalının yüksək olduğunu bəyan edir. Bu səbəbdən də ümid bağladığınız bütün istiqamətlərə baş vurun ki, kisəniz boş qalmasın. Yeni görüşlərdən yayınmayın.

OĞLAQ - Nəzərə alın ki, ortalığa pulla bağlı problemləriniz çıxa bilər. Bu səbəbdən də adıçəkilən mövzuya kifayət qədər həssas yanaşmalısınız. Ciddi sövdələşmələrdə iştirakdan yayının.

SUTÖKƏN - Ailə üzvlərinizlə, xüsusən də sevdiyiniz adamla münasibətləri qaydasına salmaq istəyirsinizsə, güzəştə gedin. Unutmayın ki, həmişə kəsə yolla getmək olmur. Axşam qonaq gedin.

BALIQLAR - Səhər saatlarında müəyyən gərginliklə üzləşmə ehtimalınız olsa da, sonrakı müddəti uğurlu keçirəcəksiniz. Yeni təkliflər alacağınız da mümkündür. Bir sözlə, sürprizlərə hazır olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Oğurluq üçün girdiyi evdə öldü




Amerikada oğurluq üçün bir evə girməyə çalışan oğru faciəvi şəkildə həyatını itirib. ABŞ-ın Kaliforniya ştatında baş verən hadisə zamanı oğru evə bacadan girməyə çalışıb. Lakin bacadan keçə bilməyib. Bacada sıxışıb qalan çağırılmamış qonaq nə evə girə bilib, nə də geri qayıda.

Oğrunun bacada qalmasından bir gün sonra evə qayıdan ev sahibi hər şeydən xəbərsiz halda sobanı yandırıb. Ev sahibi sobanı yandırdıqdan bir neçə dəqiqə sonra qışqırıq səsləri yayılıb. O, həmin anda polisə xəbər verib və sobanı söndürməyə çalışıb. 10 dəqiqə sonra isə qışqırıq səsləri kəsilib. Hadisə yerinə gələn polislər bacanı qıraraq oğrunu çıxarıblar. Kimliyi bəlli olmayan həmin şəxsin bədənində ağır yanıq izləri olduğu və bu səbəbdən öldüyü açıqlanıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300